Günəş Şərqdən doğur!

❒ № 27 (5308), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 12 fevral 2021-ci il (cümə)




## Daha 205 nəfər koronavirusdan sağalıb

140 nəfər yoluxub, 3 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus infeksiyasından 205 nəfər müalicə olunaraq sağalıb, 140 yeni yoluxma faktı qeydə alınıb.

(Səh.3)

## Xankəndidən Moskvaya reys açmaq mümkün deyil

Ermənistanın arzu və istəkləri gözündə qalacaq



Ermənistan 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanata imza atmaqla məğlubiyyətini etiraf etdi. İmzalanan sənəddə Qarabağ və ətraf rayonlarla bağlı məsələlər qeyd olunub.

(Səh.4)

**Günün içindən...**



## "TAP layihəsinin yekunlaşdırılması tarixi nailiyyətdir"

Prezident: "Biz vahid komanda olaraq çalışırıq və bu bizim uğurumuzun başlıca səbəbidir"

Fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclası keçirilib. İclasda Azərbaycan Prezidenti İlham Əliyev də çıxış edib.

(səh.2)

## Paytaxtımız boşalacaq



"Qarabağda məskunlaşma məhz böyük şəhərlərdə urbanizasiyanı səngidəcək"

(səh.4)

# Generallar Qarsdan mesaj verdilər



**Hulusi Akar:** *"Türkiyə və Azərbaycan ordularına hər kəsin etibar etməli olduğunu göstərdik"*

**Zakir Həsənov:** *"Türkiyənin yanımızda olması bizi daha da qürurlandırdı, bizə güc verdi"*

Türkiyənin Milli müdafiə naziri Hulusi Akar və Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Qarsda Türkiyə və Azərbaycan hərbçilərinin iştirakı ilə keçirilən "Qış təlimi-2021" birgə təliminin yekun mərhələsini izləyiblər.

(səh.3)

## Baş infeksionist lüzum görmür

"5 yaşa qədər uşaqların maska taxması tələb olunmur"

(səh.9)



## "Yaralanmasına baxmayaraq Şuşada 5 saat döyüşüb"



XXI əsrin Mixaylosunun döyüş yolu "Şərq"də

(səh.8)

## Kiçik evlərin böyük qəhrəmanları...



Şəhid Nurlanın ailəsi köhnə mebel sexində yaşayır

(səh.9)

- **General: "Vətən müharibəsində Ali Hərbi Məktəbin 10 hərbçisi şəhid olub"** (səh.3)
- **"İflasın astanasındayıq"** Rauf Arifoğlu: "Yayım bərbad, kağız baha, reklam yox..." (səh.6)
- **Deputat maraqlı təklif verdi** "Korrupsioner məmurların başına tac qoyulsun" (səh.7)
- **Azərbaycanda məhkəməyə çıxarılan dustaq özünə xəsarət yetirib** (səh.9)

# “TAP layihəsinin yekunlaşdırılması tarixi nailiyyətdir”

## Prezident: “Biz vahid komanda olaraq çalışırıq və bu bizim uğurumuzun başlıca səbəbidir”



Fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclası keçirilib. İclasda Azərbaycan Prezidenti İlham Əliyev də çıxış edib. Prezident CQD-nin inşasında iştirak edən bütün tərəfdaşlara təşəkkür edib:

”Mən bütün tərəfdaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Bu nəhəng layihənin inşasında iştirak edən dövlətlər - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya hökumətlərinə minnətdaram. Avropa Komissiyasına təşəkkür edirəm, çünki Azərbaycan və Avropa Komissiyası 10 il əvvəl Bakıda Cənub Qaz Dəhlizinə dair Birgə Bəyanat imzalayıb. Bu bizim fəaliyyətimizin başlanğıc nöqtəsi idi.

**“Avropa Komissiyası ilə fəal şəkildə əməkdaşlıq etmişik”**

**Dövlət başçısı qeyd edib ki, 10 il ərzində biz Avropa Komissiyası ilə fəal şəkildə əməkdaşlıq etmişik:** ”Azərbaycan və Avropa Komissiyası Məşvərət Şurasının həmsədrləridir. ABŞ və Böyük Britaniya hökumətlərinə də təşəkkür edirəm. Tərəfdaşlarımız olan hər iki ölkənin hökuməti bizim bütün təşəbbüslərimizi hər zaman dəstəkləyib. Hər iki ölkə Azərbaycan və onun qonşuları və tərəfdaşları ilə birlikdə əvvəllər də uğurla həyata keçirdiyi müxtəlif nəhəng layihələrin icrası zamanı bizə çox güclü dəstək verib. Əlbəttə, şirkətlər bu layihəyə güclü sadiqlik nümayiş etdirməsə idi, onun reallaşa bilməsi mümkünsüz olardı. Burada həqiqətən də bu nəhəng enerji layihəsinin həyata keçirilməsi ilə bağlı vahid ideya ətrafında toplaşmış şirkətlərdən ibarət böyük bir qrup mövcuddur”.

**“Ötən ilin sonuncu günü əlamətdar olub”**

**Dövlət başçısı deyib ki, budəfəki iclasda iştirak edən ölkələrin sayı əvvəlkindən artıqdır:** ”Hazırda burada 18 ölkə, 19 şirkət və 5 aparıcı beynəlxalq maliyyə təsisatı iştirak edir. Biz vahid komanda olaraq çalışırıq və hesab edirəm ki, bu bizim uğurumuzun başlıca səbəbidir. Ötən ilin sonuncu günü əlamətdar olub. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsinin yekunlaşdırılması tarixi nailiyyətdir. Əminəm ki, bizim birgə fəaliyyətimiz davam edəcəkdir, çünki yeni plan və ideyalarımız var”.

**“BP bizim strateji tərəfdaşımızdır”**

**Ölkə rəhbəri Azərbaycan və BP arasında strateji tərəfdaşlığın əhəmiyyətini xüsusi vurğulayıb:** ”BP bizim strateji tərəfdaşımızdır, Azərbaycanda 27 ildir ki fəaliyyət göstərən şirkətdir və qarşıda hələ neçə onilliklər ərzində əməkdaşlığımız var. Buraya Azərbaycanda neft və qaz sahəsi, o cümlədən resursların nəqli ilə bağlı bütün əhəmiyyətli layihələr daxildir. Həmçinin Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı layihənin həyata keçirilməsinə mühüm töhfələr veriblər”.

**“Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir”**

**Prezident vurğulayıb ki, Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir:** ”Bu gün enerji təhlükəsizliyi bütün ölkələrin milli təhlükəsizlik məsələsidir. Enerjinin şaxələndirilməsi də istehlakçı və istehsalçı ölkələr üçün vacibdir. Beləliklə, zənnimcə, biz misilsiz əməkdaşlıq formatına nail olmuşuq. Düzgün hesablanmış maraqlar balansı var ki, burada istehsalçı olan Azərbaycanın maraqları, tranzit və istehlakçı ölkələrin maraqları ilə üst-üstə düşür. Məhz bunun nəticəsində bəzilərinin o qədər də real hesab etmədikləri bir layihənin həyata keçirilməsi mümkün olub. Cənub Qaz Dəhlizi layihəsinə nəzər saldıqda onun bir çox parametrlər üzrə olduqca unikal olduğunu görə bilərik. Onun uzunluğu 3500 kilometrdir və layihə 7 ölkəni birləşdirir və həmin ölkələr arasında sıx əməkdaşlıq olmasa idi, onu reallaşdırmaq mümkünsüz olardı. Boru xətti çox mürəkkəb coğrafi məkanlardan, 2500 metr hündürlükdə olan dağlardan, 100 kilometrdən artıq hissəsi isə Adriatik dənizinin dibindən keçir”. Prezident qeyd edib ki, Cənub Qaz Dəhlizi ən yüksək ekoloji standartlara cavab verir və bu, həmin layihənin planlaşdırılması və icrası zamanı bizim üçün başlıca şərt olub.

**İsmayıl**

## Türkiyə Respublikası yeni Konstitusiya qəbul edəcək



**“Cümhur İttifaqı” olaraq yeni Konstitusiya məsələsində eyni fikirdəyik. Cümhuriyyətimizin yüzüncü ildönümünü çevrilişlə qəbul edilmiş Konstitusiya ilə deyil, yeni mülki Konstitusiya ilə qarşılayacağıq.**

Bu fikirləri Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) sədri, Prezident Rəcəb Tayyib Ərdoğan partiyasının Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında deyib.

Dövlət başçısı ”Gəlin, hamılıqla birlikdə yeni Konstitusiya təkliflərimizi bu il içində hazırlayıb müzakirələrə başlayaq”, - deyə bütün ölkə ictimaiyyətinə çağırış edib. Prezident bildirib ki, tələsmədən, bütün təbəqələrlə lazımlı məsləhətləşmələr apararaq, müasir tələblərə cavab verəcək bir Konstitusiya hazırlamalıyıq.

## Azərbaycan hərbçiləri Pakistanda təlimlərdə iştirak edirlər



**Azərbaycan hərbi dənizçiləri ”AMAN-21” çoxmillətli təlimlərində müşahidəçi qismində iştirak edirlər. Bu barədə ”Şərq”ə Müdafiə Nazirliyinə istinadən xəbər verir.**

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin zabitləri Pakistan İslam Respublikasının Kəraçi şəhərində və Ərəb Dənizi sektorunda keçirilən ”AMAN-21” çoxmillətli Hərbi Dəniz Qüvvələri təlimində müşahidəçi qismində iştirak edirlər.

30-dan çox ölkənin Hərbi Dəniz Qüvvələrinin iştirakı ilə keçirilən təlimlər fevralın 16-dək davam edəcək.

# Dönüş başlayır

## Ayvazyan indi Türkiyəyə yalvarır

### Ermənistan artıq geri addım atmağa məcburdur

Azərbaycanın 44 günlük Vətən müharibəsində Ermənistana vurduğu ziyanın miqdarı əhəmiyyətli dərəcədə böyükdür. Bura Ermənistanın ordusunun məhv edilməsi, iqtisadiyyatının işğalçı siyasətin nəticəsi olaraq çökməsi və əhalisinin acınacaqlı vəziyyətə düşməsi daxildir.

Milli Ordumuz şanlı qələbə sayəsində işğal altında olan torpaqlarımızın azad edilməsindən əlavə Ermənistanın ordusunu çarəsiz qoyub. Ermənistan ordusunun tərkibində işğal altındakı torpaqlarda xidmət apararkən əsgərlər ən pis halda zərərsizləşdirilir, ən yaxşı halda isə fərariliyi seçirdilər.

Rəsmi məlumatlar onu göstərir ki, Ermənistanda fərarilik faktları ilə əlaqədar açılan cinayət işlərinin sayı 10 mini keçib. Bu barədə Ermənistanın ”Joxovurd” qəzeti də yazıb. Qəzetin məlumatına əsasən, müstəntiqlər insanların ifadələrini qanuni baxımdan necə qiymətləndirəcəyini bilmirlər.

”Onlar asanlıqla müharibəyə getdilər, ancaq alovlar göydən tökülürdüsə və dostları gözlərinin önündə külə çevirilirdisə, nə etməliydilər? Başqa seçimimiz yox idi, xilas olmaq üçün qaçmalı idik”, - deyə qəzet ermənilərin etiraflarını yazır.

Ermənistan mətbuatının qələmə aldığı bu fakt onu göstərir ki, ermənilər Azərbaycan ordusu ilə



müharibəyə girməkdən qorxublar və çıxış yolunu yalnız fərarilik etməkdə görüblər. Deməli, Ermənistan ordusu ətrafında yaradılan ”güclü” və ”məğlubedilməz” ifadəsi sadəcə mif və yalandan başqa bir şey olmayıb. 44 gün ərzində Azərbaycan Ordusu qarşısında ağ bayraq qaldıran və dabanına tüpürərək qaçmağı seçən Ermənistan ordusu yaratdığı mifin yalan olmasını bununla təsdiq etmiş olub.

**Düşmən ölkədəki fərarilik halları barədə ”Şərq”ə danışan politoloq Mübariz Əhmədoğlunun sözlərinə görə, Ermənistan artıq geri addım atmağa məcburdur:** ”Rəsmi İrəvanın düşüncələrində dönüş var. Onlar bir neçə gün əvvələdək qatı anti-türk idi. Lakin Ermənistanın Xarici işlər naziri Ara Arvazyan indi Türkiyəyə yalvarır. Maraqlı məqam hətta müxalifətin də mövqeyindəki korrektələrdir. Əlbəttə, Ara Ayvazyanın mövqeyi Baş nazir Nikol Paşinyanın diktəsi ilə dəyişib. Belə getsə, yaxın vaxtlarda bizim maraqlarımıza uyğun daha bir neçə dəyişiklik olacaq. Məsələn, kommunikasiya xətlərinin taleyi xeyrimizə həll olunacaq. Mehri-Zəngəzur dəhlizinin əleyhinə olan və hətta İranın timsalında özlərinə tərəfdar qazanan ermənilər ”hə” deməyə məcbur qalacaqlar. Fikrimcə, rəsmi İrəvan yaxın vaxtlarda ciddi açıqlamalar verəcək”.

**Kənan**

# Generallar Qarsdan mesaj verdilər





**Türkiyənin Milli müdafiə naziri Hulusi Akar və Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Qarsda Türkiyə və Azərbaycan hərbçilərinin iştirakı ilə keçirilən "Qış təlimi-2021" birgə təliminin yekun mərhələsini izləyiblər. İlk olaraq komanda məntəqəsinə baş çəkən generallara təlimin gedişi barədə məlumat verilib.**

## Hulusi Akar: *"Türkiyə və Azərbaycan ordularına hər kəsin etibar etməli olduğunu göstərdik"*

## Zakir Həsənov: *"Türkiyənin yanımızda olması bizi daha da qürurlandırdı, bizə güc verdi"*

Bundan sonra müdafiə nazirləri yeni nəsil konteynerlərə baxış keçiriblər. Səhra mətbəxinə də baş çəkən müdafiə nazirləri Türkiyə istehsalı olan zirehli ambulansla, habelə sərt soyuqlardan qorunmaq üçün yaradılan təsisatlarla tanış olublar. Daha sonra müdafiə nazirləri havada icra edilən manevrləri izləyiblər.

**"Türkiyə ordusunun təcrübəsindən faydalanmaq bizim üçün vacibdir"**

**Müdafiə naziri Zakir Həsənov deyib ki, Türkiyə ordusunun təcrübəsindən faydalanmaq bizim üçün vacibdir:** "Türkiyə Silahlı Qüvvələri dünyanın ən güclü ordularından biridir. Qardaş ölkə ilə güclü əməkdaşlığımız mövcuddur. Azərbaycan və Türkiyə arasında tarixi, dini və mədəni bağlar var. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən "bir millət, iki dövlət" olaraq ifadə edilən Türkiyə-Azərbaycan əlaqələri bu gün dövlət başçılarımızın rəhbərliyi altında uğurla davam etməkdədir. Azərbaycanla Türkiyə arasında əlaqələrin davam etməsinə dövlət başçılarımızın böyük töhfəsi var".

**"44 günlük müharibədə Türkiyə hər zaman Azərbaycanın yanında oldu"**

**Z.Həsənov bildirib ki, 44 günlük müharibədə Türkiyə hər zaman Azərbaycanın yanında oldu:** "Azərbaycan Ermənistanı məğlub edərək torpaqlarının işğalına son qoydu. Bu müharibədə Türkiyə hər zaman yanımızda oldu. Bütün dünya qardaşlığımızın sarsılmaz olduğunu gördü. Müharibə dövründə Türkiyə mənəvi və diplomatik dəstək göstərərək yanımızda oldu. Türkiyə belə yanaşması ilə dünyaya bu mesajı verdi - Türkiyə Azərbaycanın yanındadır. Bütün dünya bir daha gördü ki, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı sarsılmazdır və əbədidir. Türkiyənin yanımızda olması bizi daha da qürurlandırdı, bizə güc verdi. Biz bu gücdən istifadə edərək işğal altındakı torpaqlarımızı işğaldan azad etdik. Azərbaycan xalqı bunu yüksək qiymətləndirdi. Türkiyənin bizə verdiyi böyük dəstəyə görə təşəkkür edirəm".

**"Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!"**

**Nazir qeyd edib ki, Qarabağ müharibəsi Türkiyə-Azərbaycan əlaqələrini daha da gücləndirib:** "Azərbaycan və Türkiyə hərbçiləri Azadlıq meydanında Zəfər paradında iştirak etdilər. Bu tarixi gündə Azərbaycan xalqı da Türkiyə və Azərbaycan bayraqları ilə öz dəstəklərini nümayiş etdirdilər. Qış təliminin də uğurlu keçməsini arzulayıram və hamınızı təbrik edirəm. Əminəm ki, qardaşlığımız, əlaqələrimiz belə davam edəcək. Yaşasın Türkiyə-Azərbaycan qardaşlığı!".

**"Türkiyə və Azərbaycan Silahlı Qüvvələrinin əməkdaşlıq etməsi çox vacibdir"**

**Türkiyənin Milli müdafiə naziri Hulusi Akar da bildirib ki, ölkələrimizin, xalqlarımızın, nəcib türk millətinin müdafiəsi və təhlükəsizliyi üçün Türkiyə və Azərbaycan ordularına hər kəsin etibar etməli olduğunu göstərdik.** Türkiyə və Azərbaycanın qardaş dövlətlər olduğunu xatırladan nazirin sözlərinə görə, bunun sözdə olmadığını 44 günlük hərəkat açıq-aydın göstərib: "Bizim həqiqətən də kədərimiz və sevincimiz birdir. Nə lazımdırsa etdik və edəcəyik. İnşallah, bundan sonra da əməkdaşlığımız davam edəcək. Azərbaycanlı qardaşlarımız bizimlə bərabər qardaşcasına əmin-amanlıqda yaşayacaqlar".

**"Azərbaycanın yanında olacağımızı dünya bilməlidir"**

**Akar vurğulayıb ki, Türkiyə "bir millət, iki dövlət" məsələsində son dərəcə qətiyyətlidir:** "Bundan sonra da daima haqlı mübarizəsində azərbaycanlı qardaşlarımızın yanında olacağımızı bütün dünya bilməlidir".

**İsmayıl**

## 23 nəfəri müxtəlif dərəcəli xəsarətlər alıb

### General: "Vətən müharibəsində Ali Hərbi Məktəbin 10 hərbçisi şəhid olub"

**Vətən müharibəsində Ali Hərbi Məktəbin müəllim-zabit, komandir heyəti ilə yanaşı 4-cü kursda təhsil alan kursantları da iştirak edib.**

APA-nın məlumatına görə, bunu Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi, general-mayor Füzuli Salahov deyib.

Onun sözlərinə görə, Vətən müharibəsində iştirak edən məktəbin 600 nəfərə yaxın hərbi qulluqçusundan 10-u şəhid olub, 23 nəfəri isə müxtəlif dərəcəli xəsarətlər alıb: "Şəhid olanlardan 5-i zabit müəllimlər, 5-i isə 4 kursdan müharibəyə göndərilən kiçik leytenantlardır. Şəhid polkovnik Nudirəliyev Zaur İsmayıl oğlu "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb".

## Füzulidə 4 erməni hərbçinin meyiti tapıldı



**Qarabağ münaqişəsi zonasında aparılan axtarış işləri zamanı daha 4 erməni hərbçinin meyiti tapılıb.**

Qafqazinfo xəbər verir ki, cəsədlər Füzuli ərazisində aşkarlanıb. Bununla da indiyədək tapılan erməni hərbçilərinin meyitlərinin sayı 1 371-ə yüksəlib.

Hazırda axtarış işləri Hadrut istiqamətində davam etdirilir.

## Daha 205 nəfər koronavirusdan sağalıb

### 140 nəfər yoluxub, 3 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus infeksiyasından 205 nəfər müalicə olunaraq sağalıb, 140 yeni yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 231 min 649 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 226 min 119 nəfər müalicə olunaraq sağalıb, 3170 nəfər vəfat edib. Aktiv xəstə sayı 2360 nəfərdir. Ötən müddət ərzində 2 milyon 478 min 223 test aparılıb. Bugünkü test sayı isə 7315-dir.

# Eyvazovun islahatları nəticə verir

## Nöqsana yol verən polis əməkdaşları işi ilə vidalaşmalı olur

Son zamanlar sayt və qəzet manşetlərində davamlı olaraq müxtəlif sahələrdə islahatlar, kadr dəyişikliyi barədə xəbərlərə rast gəlirik. Həmin qurumlardan biri də Daxili İşlər Nazirliyidir. Vətəndaşlar öz hüquq və təhlükəsizliklərinin layiqincə mühafizəsi üçün DİN əməkdaşlarına arxalanır.

Qurumun əməkdaşları yanlışlığa yol verərsə, irad tutulur, əks təqdirdə dərhal vəzifəsindən azad edilir.

Məsələn, Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Bakının Suraxanı Rayon Polis İdarəsinin 30-dan çox yüksək rütbəli əməkdaşını işdən uzaqlaşdırıb. Verilən məlumata görə, həmin şəxslər nöqsanlara görə sərəncama götürülüb. V.Eyvazovun digər əmri ilə kapitan Şəhriyar Hüseynzadə xidmətdə törətdiyi nöqsanlara, eləcə də dəfələrlə 30-cu Polis Şöbə və RPİ rəhbərliyinin iradlarından nəticə çıxarmadığına görə vəzifəsindən azad edilib.




**Aparılan islahatlar barədə "Şərq"ə danışan keçmiş polis rəisi Mahmud Hacıyev Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun atdığı addımları dəyərləndirib:** "V.Eyvazov nazir vəzifəsinə təyin olunandan bəri çox dəyişikliklər edib. Bu islahatlar özünü müsbət yöndə doğruldur. Sovet dövründə, həmçinin müstəqillik əldə edilən zamanda da belə hadisələr yaşanıb.

Təyin edilən təzə nazir müəyyən infrastruktur və kadr dəyişikliyi edir. Bəzi yoldaşlar təqaüdə göndərildi, vəzifədə dəyişilik baş vermiş oldu.

Hər halda aparılan bütün islahatlar müsbət istiqamətdə nəticəsini verir".

**Aygün Tahirqızı**

# Xankəndidən Moskvaya reys açmaq mümkün deyil

## Ermənistanın arzu və istəkləri gözündə qalacaq



**Ermənistan 2020-ci il noyabrın 10-da üçtərəfli bəyanata imza atmaqla məğlubiyyətini etiraf etdi. İmzalanan sənəddə Qarabağ və ətraf rayonlarla bağlı məsələlər qeyd olunub. 44 günlük gərgin hərbi əməliyyatlarla torpaqlarımızı azad edib, ərazi bütövlüyümüzü bərpa etdik. Müəyyən zaman çərçivəsində isə sənəddə əks olunan məsələlər həllini tapır.**

Hətta yanvarın 30-da Rusiya-Türkiyə birgə Monitorinq Mərkəzi fəaliyyətə başlayıb. Buna rəğmən Ermənistan təxribatlarından əl çəkmək bilmir. Rəsmi İrəvan tarixən olduğu kimi yenə də Azərbaycana məxsus ərazilərdən faydalanmağa çalışır. Separatçı rejim Xankəndidən Moskvaya reys açmaq niyyətindədir.

**Millət vəkili Elman Məmmədov Ermənistanın bu xülyası barədə fikirlərini "Şərq"lə bölüşüb. Parlament üzvü bildirib ki, tarix boyu düşmənin törtöküntü cinayətkar toplumu müxtəlif iddialar səsləndiriblər:** "Onlar neçə ildir ki, xəstə xülyalar və "böyük Ermənistan" arzusu ilə yaşayırlar. Bəs, nə əldə ediblər? Heç bir şey. Bir sarsaq dövlətləri var, bu gün-sabah o da ləğv olub gedəcək".

*Deputat vurğulayıb ki, Xankəndidən Moskvaya reys açmaq isə Ermənsitanın arzu və istəyi ilə baş tutan deyil:* "Azərbaycanda Dağlıq Qarabağ deyilən inzibati ərazi vahidi yoxdur. 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə bu qurum ləğv edilib.

Dağlıq Qarabağ deyilən yer sadəcə bir bölgə və regiondur. Necə ki, şimal, cənub və qərb bölgəmiz var, eləcə də Dağlıq Qarabağ mövcuddur. Xankəndi Azərbaycan ərazisidir, aeroport isə Xocalı aeroportudur.

Həmin aeroportun bütün ixtiyarı, hüququ, ora kimin gedib-gələcəyi dövlətimizin səlahiyyətindədir. Ermənilərin arzu etdikləri 2020-ci ilin 27 sentyabrında qaldı. 44 günlük müharibə vəziyyəti 180 dərəcə dəyişdi.

Müharibəyə qədər onlar qarşımıza müxtəlif şərtlər qoyurdular, istədiklərini edirdilər. Lakin bu gün qalib tərəf bizik və bütün şərtləri də biz diktə edirik!

Sərhədlərimiz daxilində nələr ola bilərsə, onu yalnız Azərbaycan dövləti müəyyən edir, hansısa cinayətkar toplum yox".

**Yeganə Bayramova**



## *Mariya Zaxarova:* "Azərbaycanlı qaçqınların öz evlərinə qayıtmaq haqqı var"

**"Azərbaycan, Rusiya və Ermənistan liderlərinin noyabr bəyanatının 7-ci bəndinə əsasən, qaçqınlar Dağlıq Qarabağ və ətraf ərazilərə BMT-nin qaçqınlar üzrə ali komissarının himayəsində qayıtmalıdırlar".**

Milli.Az bildirir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinqdə bildirib.

Onun sözlərinə görə, müharibə ilə əlaqədar evlərini tərk etmiş ermənilər hazırda fəal şəkildə geri qayıdırlar.

"Bizim üçün əsas məsələ üçtərəfli bəyanatdakı həmin bəndin əvvəlki yaşayış yerlərini tərk etməyə məcbur olanların hamısına şamil olmasıdır", - Rusiya XİN rəsmisi qeyd edib.

# Paytaxtımız boşalacaq

## "Qarabağda məskunlaşma məhz böyük şəhərlərdə urbanizasiyanı səngidəcək"



## "Həyat bərpa olunandan sonra bölgədə əhalinin artmasını da müşahidə edəcəyik"

Coğrafiya İnstitutu "İnsan coğrafiyası" istiqamətinin rəhbəri, coğrafiya üzrə elmlər doktoru Zakir Eminov deyib ki, işğaldan azad edilmiş ərazilərin iqtisadi inkişafını təmin etmək üçün urbanizasiya başlıca rol oynayır. Onun sözlərinə görə, Qarabağın tezliklə bərpa olunmasında, sosial iqtisadi durumunun dirçəlməsində xüsusən əlverişli imkanları olan iri şəhərlərin salınması vacibdir:

"Qarabağda əhalisi bir neçə yüz min nəfər olan şəhərin yaradılması regionun inkişafı üçün mühüm addım olar. Mineral xammal ehtiyatları ilə zəngin Kəlbəcər rayon ərazisində 8 filiz mədəni, 19 tikinti materialları yatağı, 7 mineral termal su yatağı, eləcə də Söyüdlü (Zod), Ağduzdağ, Qızılbulaq qızıl yataqları movcuddur. Ərazinin təbii şəraiti və mövcud imkanları burada inkişaf etmiş iri sənaye şəhərlərinin salınması üçün geniş imkanlar açır". Alimin fikrincə, Xocalı və Ağdam şəhərlərinin inkişaf etdirilərək birləşdirilməsi, vahid bir məntəqə kimi yaradılması qarşıda duran ən vacib vəzifələrdən biri kimi müəyyən edilməlidir: "Yaxın 10 il ərzində əhalisinin sayını 500 minə çatdırmaqla, Bakı ilə rəqabət apara biləcək ikinci bir iri sənaye şəhəri əldə etmək mümkündür. Azərbaycanda əhali Abşeron yarımadasında cəmlənməkdə davam edir. Gəncənin əhalisi uzun müddətdir ki, zəif templə artır və yuxarı qalxmır. Bu, təsərrüfatın inkişafı üçün də, demoqrafik inkişaf üçün də böyük problemlər yaradır. Uzun müddət paytaxt olmuş Xankəndi vaxtilə respublikanın inkişaf etmiş sənaye mərkəzi olduğundan oranın əhalisi 65 minədək artmışdı".

**Alimin açıqlamasını "Şərq"ə dəyərləndirən millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov bildirib ki, Qarabağın quruculuğunda fərqli yanaşmalar var. Amma bütövlükdə işğaldan azad olunmuş ərazilərimizin inşası ilə bağlı xüsusi plan hazırlanır. Deputatın fikrincə, bütün planlar "Böyük Qayıdış" proqramı fonunda reallaşacaq:** "Bizim yanaşmamız ondan ibarətdir ki, Qarabağın inkişafı istiqamətində "ağıllı şəhər" və "ağıllı kənd"lərin salınması bütövlükdə ölkə üzrə urbanizasiya prosesinin azalmasına gətirib çıxaracaq. Son illər, xüsusən 2000-ci ilin əvvəlindən 2015-ci ilədək paytaxta və digər böyük şəhərlərə insan axınını müşahidə edirdik. Qarabağda məskunlaşma məhz böyük şəhərlərdə urbanizasiyanı səngidəcək. Əlbəttə, proses sistemli şəkildə həyata keçiriləcək. Artıq 4 mərhələ müəyyənləşib. Yaxın günlərdə Füzulidə və digər iki rayonumuzda beynəlxalq hava limanı istifadəyə veriləcək. Bu addımlar bölgəyə sərmayənin cəlb edilməsi üçün yeni imkanlar yaradacaq. Bütövlükdə Qarabağ yaxın illərdə ölkə iqtisadiyyatına xüsusi töhfə verəcək. İri şəhərlərdə məskunlaşmış məcburi köçkünlərimiz yenidən öz ata-baba yurdlarına geri dönəcəklər. Qarabağda həyat bərpa olunandan sonra bölgədə əhalinin artmasını da müşahidə edəcəyik".

**İsmayıl Qocayev**



Türkiyənin Milli müdafiə naziri Hulusi Akar və Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Qarsda Türkiyə və Azərbaycan hərbçilərinin iştirakı ilə keçirilən "Qış təlimi-2021" birgə təliminin yekun mərhələsini izləyiblər.

# Qarabağda ruslar müvəqqətidir

## Türkiyə bizimlə birlikdədir, təlimlər də buna işarədir

İlk olaraq komanda məntəqəsinə baş çəkən H. Akar və Z. Həsənova təlimin gedişi barədə məlumat verilib. Bundan sonra müdafiə nazirləri yeni nəsil konteynerlərə baxış keçiriblər.

Burada səhra mətbəxinə də baş çəkən müdafiə nazirləri Türkiyə istehsalı olan zirehli ambulansa, habelə sərt soyuqlardan qorunmaq üçün yaradılan təsisatlara baxış keçiriblər. Daha sonra müdafiə nazirləri havada icra edilən manevrləri izləyiblər.

Qeyd edək ki, "Qış təlimi-2021" Türkiyə Silahlı Qüvvələrinin və Əlahiddə Ümumqoşun Ordunun bölmələrinin iştirakı ilə keçirilir.

Əlbəttə, bu, iki qardaş ölkə arasındakı əlaqələrin, əməkdaşlığın növbəti bariz nümunəsidir.

**Ehtiyatda olan polkovnik Şair Ramaldanov Zakir Həsənovun Türkiyəyə səfərini "Şərq"ə şərh edib: "Qarsda keçirilən təlimlər hazırlanan tədbirlər planına uyğundur:** "Bildiyiniz kimi, Azərbaycan bölmələri də həmin hazırlıqlarda iştirak edirlər. Bu isə təlimi izləməyi bizim üçün maraqlı edir. Ümumiyyətlə, müharibədən əvvəl də Zakir Həsənov dəfələrlə Türkiyəyə gedib. Hulusi Akar da Bakıda çox olub. Ona görə belə səfərləri dostluq səfərləri hesab edirəm. Fikrimcə, dünya bizim dostluğumuzdan dərs götürməlidir. Biz digər ölkələrə də qardaşlıq, dostluq mesajı veririk".

**Ş.Ramaldanovun fikrincə, bu təlimlərin və Z.Həsənovun Türkiyəyə səfərinin simvolik əhəmiyyəti də var:** "Türkiyə ilə bizim maraqlarımız birdir - Cənubi Qafqazda sabitliyi təmin etmək. Azərbaycanın işğalçı niyyəti yoxdur. Lakin Ermənistan işğalçı siyasətini davam etdirərsə, rəsmi Ankaranın yanımızda olacağını bilməlidir.

Bunun üçün hüquqi baza da var. Artıq Türkiyə Ali Məclisində müvafiq qərar da qəbul edilib. Türkiyə regionda minaların təmizlənməsi işində iştirakı, Monitorinq Mərkəzinin tərkibində olması ilə Azərbaycana qardaş dəstəyini bir daha göstərdi.

Zənnimcə, Qarabağda ruslar müvəqqətidir. Azərbaycanın haqq işinin davam etməsi üçün Türkiyə bizimlə birlikdədir. Təlimlər də dediyimiz məqama işarədir".

**Kənan Novruzov**

# Söz sahibi bizik

## Rusiyanın hər hansı diplomatı Azərbaycanın adından danışa bilməz



Rusiya Xarici işlər nazirinin müavini Andrey Rudenkonun fevralın 9-da azərbaycanlı həmkarı Xələf Xələfovla Moskvadakı görüşündə bəzi açıqlamaları diqqət çəkib. Rudenko söyləyib ki, ATƏT-in Minsk qrupu həmsədrləri Qarabağ münaqişəsinin həlli ilə bağlı fəaliyyətlərini davam etdirməlidir.

Rudenkonun söylədikləri Rusiya XİN-in mövqeyi baxımından kifayət qədər narahatlıq doğurur. Əlbəttə, onun sözləri təhrif edilməyib və açıqlaması kəsilməyibsə. Ancaq aradan xeyli zaman keçdiyi və hər hansı təkzib olmadığı üçün görünür, Rudenko açıqlamasından razıdır.

Rusiyalı diplomat həmçinin Qarabağda atəşkəsə nəzarət üçün yaradılan Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətindən də danışıb. Onun sözlərinə görə, Monitorinq Mərkəzi regionda vəziyyətin normallaşması istiqamətində həyata keçirilən fəaliyyət üçün çox yaxşı nümunədir.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq millət vəkili Fərəc Quliyev "Şərq"ə bildirib ki, Azərbaycan torpaqlarını öz gücünə azad edib. Kiminsə dövlətimizin adından çıxış etməsi yolverilməzdir:**

"Haqqımız olanı özümüz almışıq, ölkəmiz müstəqil siyasət yürüdür. Əslində yeni reallıqların yaranmasında 2+2 formatı rol oynadı. Bu format 2+2 kimi təqdim olunsa da, daha çox 2+1 kimidir. Müharibə prosesi bitib, Azərbaycan tərəfinin müstəqillik aktının 12-ci bəndinə görə, suverenlik şərtsiz olaraq bütün ərazilərimizə şamil olunur. Bu ərazilərin bir qismini hərbi yolla azad etdik, digər qismini isə kaputilyasiyaya uğramış Ermənistan tərəfi boşaltdı. Hələlik erməni əsilli azərbaycanlılar yaşayan yerlərdə də mülki idarəetməni səhmana salmaq üçün müəyyən texniki işlər aparılmalıdır. Ərazilərimizdə hansısa işin görülməsini isə yalnız və yalnız dövlətimiz müəyyənləşdirir".

**F.Quliyev vurğulayıb ki, Rudenkonun verdiyi bəyanatın heç bir əhəmiyyəti yoxdur:**

"O və yaxud Rusiyanın hər hansı bir diplomatı yalnız Ermənistanın adından danışa bilər, Azərbaycanın yox. Çünki Ermənistan xarici siyasətini müstəqil yürüdə bilmir. Ərazilərimizlə bağlı yeganə söz sahibi Azərbaycandır, lazım olan ifadələri də Prezidentimiz deyir. Ona görə də Rudenkonun bu açıqlamasını ciddiyə almıram. Müharibə başa çatıb, torpaqlarımızı azad etmişik, yalnız bəzi məsələlər qalıb. Onlar da siyasi və diplomatik yolla Azərbaycanın iradəsinə, konstitusiyası və beynəlxalq qanunlarına uyğun olaraq yerinə yetiriləcək. Kimsə işimizə qarışa bilməz!".

*Partiya sədrinin qənaətincə, monitorinq mərkəzi və Rusiya sülhməramlıları müvəqqəti missiya yerinə yetirən bir sistemdir:*

"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi bir ifadəni xatırlatmaq istəyirəm: "Biz elə bir mühit yaratmalıyıq ki, gələcəkdə azərbaycanlılar və ermənilər Azərbaycan ərazisində monitorinq mərkəzi və sülhməramlılar olmadan yaşaya bilsinlər. Bu zaman Rusiya və Türkiyənin də beynəlxalq imicinə müsbət ştrixlər gələr".

Monitorinq mərkəzi qısa zamanda erməni əsilli azərbaycanlılar və oradan qovulan Azərbaycan türklərinin normal münasibətləri üçün fəaliyyət göstərəcəklər. Əlbəttə ki, rusiyalı hərbiçilərin təkbaşına xidməti dövründə xeyli fəsadlar var idi. Lakin görürük ki, türk əsgərlər gələndən sonra fransız jurnalistlərin və Ermənistan tərəfindən olan bəzi adamların geri qaytarılması baş tutdu. Türkiyənin gəlişindən sonra monitorinq mərkəzi proseslərə müsbət nəticə verir. Lakin onlar yalnız öz çərçivələri daxilində fəaliyyət göstərməli və Azərbaycanın mülki idarəçilik işlərinə müdaxilə etməməlidirlər".

**Yeganə Bayramova**



## Şəhidimiz Şabranda dəfn olunub

**Azərbaycan Ordusunun şəhid olmuş hərbi qulluqçusu Ağayev Əmirağa Mahir oğlu Şabranda dəfn edilib.**

APA-nın şimal bürosunun verdiyi məlumata görə, Vətən müharibəsində Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olan Azərbaycan Ordusunun əsgəri, 19 yaşlı Ağayev Əmirağa Mahir oğlunun nəşi Şabran rayonuna aparılıb.

Şəhid Şabran şəhidlər xiyabanında torpağa tapşırılıb.

Şəhidin dəfn mərasimində Şabran Rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər və rayon ictimaiyyəti iştirak edib.

Qeyd edək ki, Ə. Ağayev cəbhənin Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib və qəhrəmancasına şəhid olub.

Şəhid Vətən müharibəsində itkin düşən hərbçilərdən biri idi.

**Allah rəhmət eləsin!**

## Çində BBC-nin yayımı qadağan edilib

**Çin Xalq Respublikasının Radio və Televiziyaların Tənzimləyicisi İdarəsi ölkə ərazisində Britaniyaya məxsus BBC-nin yayımını qadağan edib.**

APA xəbər verir ki, bu barədə yerli CGTN telekanalı məlumat verib.

Qeyd edilib ki, Çinin tənzimləyici qurumu BBC-ni etibarlılıq və qərəzsizlik prinsipini pozmaqda günahlandırıb.

# Siyavuş Novruzov həm haqlıdır, həm də haqlı deyil

## Deputat 400 manat cərimısini ödəyib canını qurtarmalıdır

Milli Məclisin deputatı Siyavuş Novruzov Daxili İşlər Nazirliyini məhkəməyə verdiyini açıqlasa da, bir müddət sonra fikrindən daşınıb və məhkəməyə üz tutmayacağını söyləyib. Millət vəkilinin nazirliyi məhkəmə ilə "hədələməsinə" səbəb karantin qaydalarını pozduğuna görə 400 manat cərimələnməsi olub. Deputat ilkin açıqlamasında bildirib ki, onun inzibati qaydada cəzalandırılması və cərimələnməsi tamamilə qanunsuzdur:

"Görünən odur ki, aidiyyəti qurumların və səlahiyyətli şəxslərin qanundan xəbərləri yoxdur. Halbuki, həmin qanunu biz qəbul etmişik. Orada açıq şəkildə qeyd olunur ki, bu qaydalar Milli Məclisin deputatına şamil olunmur. Yəni hara istəyir, gedə bilər. Ona görə də millət vəkili kimi həmin qanunun müvafiq maddəsi ilə deputat olaraq mənim barəmdə cərimələnmək qərarı vermək qanunsuzdur. Onu da qeyd edim ki, qanun Nazirlər Kabineti yanında operativ qərargahın qərarlarından üstündür. Bu səbəbdən də mən Daxili İşlər Nazirliyini məhkəməyə verirəm". Parlament üzvünün bəyanatına DİN-dən cavab gecikməyib. Nazirlikdən vurğulanıb ki, hər bir vətəndaşın məhkəməyə müraciət etmək hüququ var: "Məhkəməyə vermək istəyir, buyursun versin". Lakin qısa zaman sonra Siyavuş Novruzov nazirliyi məhkəməyə vermək niyyətindən vaz keçib. Bildirib ki, Daxili İşlər Nazirliyinin əməkdaşlarının həm pandemiya dövründə, həm də Vətən müharibəsi zamanı göstərdikləri fədakarlığa görə bu qərara gəlib. Xatırladaq ki, Ramiz Mehdiyevin nəvəsinin toyunda iştirak edən Siyavuş Novruzov DİN tərəfindən 400 manat cərimələnmişdi.

Parlament üzvü niyyətindən daşındığını açıqlasa da, qaldırdığı məsələ hüquqi müstəvidə müzakirələrə səbəb olub. Doğrudanmı parlament üzvləri hansısa qayda pozuntusuna görə cərimələnə bilməz?

**Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Tural Hüseynov "Şərq"ə açıqlamasında millət vəkilinin qanuni baxımdan haqlı olduğunu, ancaq cərimədən şikayət etmək haqqını hüquqi cəhətdən itirdiyini deyib.** Ekspert ümumiyyətlə, bu məsələ ilə bağlı bəzi ziddiyyətli məqamlara da aydınlıq gətirib: "Konstitusiyanın 148-ci maddəsində qanunvericilik sistemində daxil olan aktların sıralaması verilib. Həmin sıralamada qanunlar Nazirlər Kabinetinin qərarlarından üstün mövqedə dayanır. Ümumiyyətlə, İnzibati Xətalar Məcəlləsinin özü qanunlar külliyatıdır və Milli Məclis tərəfindən qəbul olunur. Azərbaycanda koronavirus pandemiyası başlayan ərəfədə xəstəliyə və qaydaları pozanlara qarşı mübarizə tədbirlərini gücləndirmək üçün İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsinə dəyişiklik olundu. Mövcud qanunda nəzərdə tutulan cərimələr artırıldı. Siyavuş müəllim bunu nəzərə alaraq deyir ki, parlamentdə qəbul edilən qanunlar Nazirlər Kabinetinin qərarlarından üstündür, çünki həmin qərarları parlament qəbul edir. Deputatın bu istiqamətdə dediklərini Konstitusiyamız da təsdiq edir. Ancaq millət vəkili cəriməyə görə məhkəməyə şikayət verməyi nəzərdə tutubsa, İnzibati Xətalar Məcəlləsinin 130-cu maddəsinə görə, qərar verilən vaxtdan 10 gün müddətində şikayət edə bilər. Məlum toy hadisəsinin üzərindən aylar ötüb. Əgər qərar ilkin dövrdə deputata təqdim olunubsa, aylar sonra inzibati qaydada məhkəməyə şikayət mümkünsüz olacaq. Çünki qanunla nəzərdə tutulan müddət keçib".



**T.Hüseynov əlavə edib ki, Konstitusiyanın 90-cı maddəsində deputatların toxunulmazlığı öz əksini tapıb. Həmçinin, "Deputatların Statusu" Haqqında qanunun 12-ci maddəsinə əsasən, millət vəkilləri məhkəmə qaydası ilə inzibati məsuliyyətə cəlb oluna bilməz:** "Əslində, deputat statusu daşıyan şəxslərin cərimə olunmasında ziddiyyət var. Bu məsələyə aydınlıq gətirilməlidir. Xatırladım ki, karantin rejiminin tətbiqi, yaxud sərtləşdirmə haqqında verilən müvafiq qərarlarda xidməti vəsiqəsi ilə hərəkətinə icazə verilən şəxslər arasında millət vəkilləri də yer alıb. Amma nəzərə almaq lazımdır ki, ümumilikdə karantin rejiminin tətbiqi ilə bağlı qərarlarda toy, nişan kimi mərasimlərin təşkili qadağan edilib. Deməli, xüsusi statusa malik deputatlar belə qadağan olunmuş mərasimlərdə iştirak edə bilməz, etməməlidir. Karantinin sərt vaxtlarında deputatlara icazələr onların xidməti fəaliyyəti ilə əlaqədar verilib. Parlament üzvləri qərarın ümumi mahiyyətini pozmamağa çalışmalıdır".

Hüquqşünas qeyd edib ki, Konstitusiyanın 71-ci maddəsinin 3-ci hissəsinə əsasən, insanların hüquq və azadlıqlarının məhdudlaşdırılması müharibə, hərbi və fövqəladə vəziyyət zamanı, habelə səfərbərlik elan edilərkən mümkündür: "Bizdə pandemiya ilə bağlı qeyd olunan vəziyyətlərdən heç biri elan olunmadı. Halbuki, pandemiya fövqəladə vəziyyətə uyğun gəlirdi. Söhbət Vətən müharibəsindən əvvəlki vaxtdan gedir".

**İsmayıl Qocayev**

# “İflasın astanasındayıq”

## Rauf Arifoğlu: “Yayım bərbad, kağız baha, reklam yox...”



Qəzetlərin mövcud vəziyyəti göz önündədir. Obyektiv və subyektiv səbəblərdən çap mətbuatı tədricən öləziyir. Bu isə əsl jurnalistikanın məhz qəzetçilikdən başlandığını aydın dərk edən jurnalistlərin nigaranlığını hər ötən gün daha da artırır.

Doğrudanmı, qəzetçilik artıq sıradan çıxmalıdır? Yaşamalıdırsa, necə, hansı şərtlərlə? Əlbəttə, informasiya təminatını həyata keçirməyin başqa yolları da var.

Lakin çap mətbuatının həm də tarixi ənənə olduğu unudulmamalıdır. Elə isə nə etməli? Gərək ya işimizi dəyişək, ya oxucumuzu...

**”Yeni Müsavat” media holdinqinin rəhbəri Rauf Arifoğlu qəzetçiliyin taleyi barədə ”Şərq”ə danışarkən məsələyə təsir edən məqamları sadaladı:** ”Qəzet konkret əmtəədir. Ona görə oxuya, əlimizə ala bilirik. Satış üçün şərtlər isə tamamilə fərqlidir. Gərək satıcı, paylayıcı olsun, lakin bu yoxdur. Yayım sistemi bərbad vəziyyətdədir. Üstəgəl, redaksiyalar kasıb, çap məmulatları bahadır. Reklam bazarı yoxdur. Koronavirus pandemiyası isə vəziyyəti daha da pisləşdirdi. Potensial oxucumuzu da itirdik. Belə bir şəraitdə qəzetçiliklə məşğul olmaq çox çətindir”.



**“Çap mətbuatı sıradan çıxmamalıdır, bütün imkanlarla qəzetçiliyi yaşatmağa çalışmalıyıq”**

**R.Arifoğlunun fikrincə, bütün imkanlarla qəzetçiliyi yaşatmağa çalışmalıyıq:** ”Əlbəttə, çap mətbuatı sıradan çıxmamalıdır. Lakin indiki şəraitdə qəzet çıxarmaq, həqiqətən, qəhrəmanlıqdır. Çünki digər ölkələrə nisbətən Azərbaycanda KİV-ə böyük kapital qoyulmadı. Nə yaxşı ki, multimedia vasitələrindən istifadə edərək oxucularımıza çata bilirik. Ən böyük problemlərdən biri də ”Reklam haqqında” Qanunun tələbləridir. Ümumiyyətlə, hər şey qəzetçilərin əleyhinədir. Və mətbuat işçiləri olaraq iflasın astanasındayıq”.

**Kənan**

# Ramiz Mehdiyev məhkəməyə verilib

## Akademiyanın Prezidentinin bülletendə olan işçini işdən azad etmək hüququ yoxdur



**AMEA-nın müxbir üzvü Əlövsət Quliyev Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Ramiz Mehdiyevi məhkəməyə verib. Buna səbəb Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru Ə.Quliyevin bülletendə olduğu müddətdə onun R.Mehdiyev tərəfindən işdən çıxarılması olub.**

Ə.Quliyevin yerinə keçmiş Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri, akademik Qərib Məmmədov təyin olunub. O, işə bərpa olunması üçün Yasamal Rayon Məhkəməsinə müraciət edib.

**Baş verənləri ”Şərq”ə dəyərləndirən təhsil üzrə mütəxəssis Nabatəli Qulamoğlunun açıqlamasına görə, Ramiz Mehdiyevin bülletendə olan işçini işdən azad etmək hüququ yoxdur:**

”Məhkəmə həmin şəxsi işinə bərpa etməlidir. Amma təəssüf ki, məhkəmələrimizdə ədalətsizliyə yol verirlər. Ramiz Mehdiyevi işindən azad etmək lazımdır. Bu adamın yaşı çoxdur. Onun işləmək qabiliyyəti yoxdur. Niyə işindən azad etmirlər? Nə üçün camaatı 65 yaşına çatan kimi təqaüdə göndərirlər, lakin bu şəxs vəzifədən getmək bilmir?

Ramiz Mehdiyevin Əlövsət Quliyevi işdən azad etməsi ədalətsizlikdir. Fikrimcə, bu məsələ şəxsi münasibətlərlə bağlıdır. Ola bilməz ki, Ramiz Mehdiyev əmək məcəlləsini bilməsin”.

**Yeganə**

# Bakı və Tiflis razı olmayacaq



## Abxaziyadan Ermənistana dəmir yolunun çəkilməsi ideyası baş tutmayacaq

Qondarma Abxaziya "parlamenti" Rusiya Dumasına müraciət edərək, bərabərhüquqluluq şərti ilə "respublika" ərazisindən keçib Ermənistana gedən dəmir yolunun açılması layihəsində iştirak etməyə hazır olduğunu bildirib.

Bu məlumatı qondarma Abxaziya parlamentinin ”beynəlxalq əlaqələr komitəsinin sədri” Astamur Loqua yayıb. ”Təşəbbüs bizim komitəyə məxsusdur. Biz regionda və Dağlıq Qarabağda baş verən konfliktin həll edilməsini izləyirik. Biz nəqliyyat kommunikasiyalarının açılmasıyla bağlı baş verənləri alqışlayırıq”, - deyə o bildirib.

Qeyd edək ki, Abxaziya Gürcüstan ərazisidir. Qondarma respublikadan keçən dəmir yolu xətti bundan öncə dəfələrlə dilə gətirilib, amma Tiflis hər zaman buna ərazi bütövlüyü təmin olunmadığı üçün etiraz edib.

**Mövzuya münasibət bildirən politoloq Əhəd Məmmədli ”Şərq”ə açıqlamasında vurğulayıb ki, bu məsələ bir neçə il bundan öncə də Gürcüstanda gündəmdə idi.** Politoloqun sözlərinə görə, o zamanlar Abxaziyadan Ermənistana gedən dəmiryolunun açılmasına gürcü iqtidarı müsbət yanaşırdı: ”Düzdür, Gürcüstanın müxalifəti bunun əleyhinə çıxırdı. Amma indi yeni şərtlər yaranıb. Bu yeni şərtlərə əsasən, artıq Abxaziya qondarma respublikanın bu cür təklifi var”.

**Ekspertin fikrincə, Gürcüstan bu məsələyə razılıq versə də, Azərbaycan tərəfi razı olmayacaq:** ”Çünki bu, bir qondarma tərəfə yeni bir nəfəs, legitimlik verə bilər. Hesab edirəm ki, Tiflis də müsbət yanaşmayacaq. Ümumiyyətlə, bu, Tiflisin heç maraqlarına uyğun da deyil. Azərbaycan-Ermənistan münasibətlərinin düzəlməsi üçün yeni layihələrin Gürcüstandan yox, məhz Ermənistandan keçməsi Tiflisin maraqlarına cavab verir. Düzdür, bir çox layihələr Gürcüstan ərazisindədir və demək olar ki, artıq hansı layihələrin orada olacağı məsələsi bitib. Bu məsələdə də Ermənistan uduzub. Ona görə də hesab edirəm ki, dəmir yolunun açılması layihəsinə Azərbaycan və Tiflis razı olmayacaq”.

**Aynurə Pənahqızı**

**Yanvarın 27-də Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Aydın Zöhrab oğlu Kərimov Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin edilib.**

Aydın Kərimov bu vəzifəyə kimi Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müşaviri olub. Onun Şuşa şəhərinin yenidən qurulması işinə rəhbərlik edəcəyi bildirilir.



# Qarabağa əlahiddə nümayəndə təyin edilməyəcək

## Çünki digər ərazilərin idarə olunmasında fərqliliklər meydana çıxar

Şuşaya təyin edilən xüsusi nümayəndə Azərbaycanda ilk idi. Bəs bu təsisatın Qarabağın Xankəndi, Xocalı, Xocavənd kimi digər şəhərlərində də yaradılması mümkündürmü?

**Bununla əlaqədar deputat Elman Məmmədov xatırladıb ki, xüsusi nümayəndələr Prezident İlham Əliyevin sərəncamı ilə təyin edilir:** ”Prezidentin xüsusi nümayəndəsinin səlahiyyətləri və vəzifələri haqqında Əsasnamə də təsdiq edildi, mətbuatda yayıldı. Bu, yüksək səviyyədə təsisatdır və nümayəndələr birbaşa Prezident Administrasiyasının əməkdaşıdırlar, Administrasiya rəhbərinə tabedirlər.

Diqqət etmək lazımdır ki, Prezidentin Şuşaya təyin etdiyi xüsusi nümayəndə Aydın Kərimov şəhərsalma sahəsi üzrə mütəxəssisdir. Görünür ki, ərazilərimizə təyin edilən xüsusi nümayəndələr bərpa, quruculuq işlərinə nəzarət edə biləcək adamlar olacaq.

**Hesab edirəm ki, yaxın gələcəkdə Xankəndi, Xocalı, Xocavənddə - işğaldan azad edilmiş digər ərazilərimizdə xüsusi nümayəndələr olacaq”.**

Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli ”Şərq”ə açıqlamasında sözügedən məsələyə münasibət bildirib: ”Prezidentin mövqeyi yarım qalan məsələlərin həll edilməsindən və erməni terrorçularının Qarabağı boşaltmasından ibarətdir. Əlbəttə, bu proses Azərbaycan əsgərlərinin ora yerləşməsi ilə müşahidə olunmalıdır. Proseslərin tədricən həyata keçirilməsinə şübhə yoxdur. Əsas məsələ məhz birgə Monitorinq Mərkəzinin yaradılması idi.

Konkret fakta gəldikdə isə bildirməliyəm ki, Qarabağa əlahiddə nümayəndə təyin edilməyəcək. Çünki digər ərazilərin idarə olunmasında fərqliliklər meydana çıxar. Və bu, Konstitusiyanın tələblərinə ziddir. Hər şeydən əvvəl ”Dağlıq Qarabağ” siyasi termininin daha mövcud olmadığını nəzərə almalıyıq. Ora coğrafi mövqedir və inzibati ərazi vahidi kimi nəzərdə tutulmalıdır.

Qarabağda idarəetmə sistemi yaradılmalıdır. Lakin biz bunu fərqli rayonlara, o cümlədən Xankəndi, Xocalı, Xocavəndə deyil, bütövlükdə Qarabağa nümayəndənin təyin olunması kimi başa düşməliyik”.

**Kənan Novruzov**



# "Görünən odur ki, Qarabağa sabitlik və təhlükəsizlik gəlir"

## Kamran Rüstəmzadə: "Rusiyanın Cənubi Qafqazda öz nüfuzunu qoruyub saxlaması həyati əhəmiyyət daşıyırdı"

**Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsi və Qarabağ probleminin böyük miqyasda nizamlanması 2020-ci ilin ən mühüm hadisəsi oldu. Ancaq proses tam yekunlaşmadığı və kifayət qədər önəmli hesab edilən bəzi məqamlar hələ də qaldığı üçün mövzu 2021-ci ərzində də politoloqların diqqət mərkəzində olacaq.**

Artıq keçmişdə qalan münaqişədən sonra müzakirə predmetinə çevrilən ciddi mövzulardan biri də bölgədə Rusiya faktoru, ələlxüsus sülhməramlı kontingentin Qarabağda yerləşməsidir. Qeyd edək ki, cəmiyyətin əhəmiyyətli hissəsi Rusiyanı, sülhməramlıların mövcudluğunu təhlükə kimi dəyərləndirirlər. Lakin digər qisim hesab edir ki, ilkin mərhələdə və mövcud şərtlər daxilində ən optimal yol Rusiyanın Qarabağın ermənilər yaşayan ərazilərinə nəzarət etməsi, moderatorluğu əlində saxlamasıdır. Çünki Moskva həm də Yerevanı yola gətirən mühüm amil sayılır. **Mövzu ilə bağlı "Şərq"in suallarını cavablandıran Rusiya Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının aspirantı, postsovet ölkələri üzrə siyasi təhlilçi Kamran Rüstəmzadə xatırladıb ki, münaqişəni aradan qaldırmaq üçün ABŞ və Avropa İttifaqı ölkələri uzun illər çalışdı.** ATƏT-in Minsk qrupu ilə yanaşı, Gürcüstan və İran da moderator kimi çıxış etmək istədilər. Lakin yalnız Rusiya tərəflərə münaqişənin uzunmüddətli həll formatını və regionda sülhün bərqərar olmasını təklif edə bildi. Bu prinsiplər Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli birgə bəyanatında öz əksini tapdı...

**- Kamran bəy, 10 noyabrdan sonra cərəyan edən prosesləri necə dəyərləndirirsiniz? Baş verənlər nə dərəcədə xeyrimizədir?**

- Faktiki olaraq, üçtərəfli birgə bəyanatın maddələri Qarabağla bağlı əvvəllər hazırlanmış Madrid və Kazan prinsiplərinin məntiqi davamı oldu. Sadəcə üçtərəfli anlaşmanın önəmi odur ki, əvvəlki sənədlər kimi kağız üzərində qalmadı və dərhal reallaşmağa başladı. Rusiya faktoru Qarabağın Azərbaycanın siyasi məkanına inteqrasiyasına dair yeni razılaşmanın və danışıqlar prosesinin dinamikasının qorunub saxlanılmasında mühüm rol oynayır. Artıq müsbət dinamika nəzərə çarpmaqdadır. Məsələn, Ermənistandan olan çağırışçılar bundan sonra Qarabağa getməyəcək və respublika daxilində yerləşən hissələrdə xidmət edəcəklər. O cümlədən Rusiya sülhməramlıları erməni akkreditasiyası ilə fransalı jurnalistləri Dağlıq Qarabağa buraxmadı. Rusiya sülhməramlılarının qanuni fəaliyyəti Qarabağ bölgəsində Ermənistan tərəfinin təxribat törətməsinə imkan vermir. Bu da iqtisadi və humanitar əlaqələrin bərpası üçün ölkələrin birgə fəaliyyətini asanlaşdırır. Nəzərə alaq ki, Cənubi Qafqaz yeni geosiyasi proseslərin mərkəzidir və Rusiya burada öz nüfuzunu qoruyub saxlamağa çalışır.

**- Rusiya Türkiyə ilə birlikdə ortaq fəaliyyətdə nə qədər maraqlıdır? Sülhyaratma prosesində iki ölkənin birgə çalışması effektli olacaqmı?**

- Əvvəla deyim ki, Cənubi Qafqaz regionu ənənəvi olaraq Avropa İttifaqı, İran, ABŞ, Rusiya və hətta müəyyən dərəcədə Çin kimi müxtəlif geosiyasi güclərin qarşıdurma zonası olub. Bu, əlverişli coğrafi vəziyyətlə, təbii resurslarla və Avropa-Asiya arasında nəqliyyat zonasına çevrilmək üçün regionun böyük perspektivi ilə əlaqədardır. Əlbəttə, müxtəlif ölkələr daha çox regionun geoiqtisadi vəziyyətindən mənfəət əldə etmək uğrunda mübarizə aparıblar. Burada əsas maneə Qarabağ münaqişəsi idi. Son dönəmlər Rusiya ilə Türkiyənin Qərbin aparıcı ölkələri ilə münasibətləri xeyli pisləşib. İran və Koreya probleminin həll edilməməsi nəticəsində Şərq-Qərb prinsipi ilə beynəlxalq münasibətlər yenidən qütbləşib. Belə şəraitdə Rusiyanın Cənubi Qafqazda öz nüfuzunu qoruyub saxlaması həyati əhəmiyyət daşıyırdı. Xüsusilə, Azərbaycan-Türkiyə yaxınlaşması, həmçinin Ermənistan və Gürcüstanın Aİ və ABŞ-a tərəf dönüşü fonunda bu, çox önəmli idi. Cənubi Qafqaz Rusiyanın təhlükəsizlik zonası sayılır. Moskva üçün vacib olan məqam problemlərin həllində əsas hakim rolunu oynamaq və bununla öz təsir gücünü saxlamaqdır. Qarabağ hadisələri bu tezisi təsdiqlədi və göstərdi ki, həm Azərbaycanla, həm də Ermənistanla iqtisadi və mədəni əlaqələrə malik Rusiya hər iki ölkə arasında moderator qismində çıxış edə bilər. Bununla yanaşı, Rusiya tərəfi çeviklik nümayiş etdirir və hər iki ölkənin maraqlarını da nəzərə alır. Rusiya sülhməramlılarının Qarabağın erməni əhalisi üçün həyata keçirdikləri humanitar aksiyalar və Ağdamda Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin açılması bunun bariz nümunəsidir. Bununla Rusiya tərəfi Azərbaycanın yaxın tərəfdaşı olan Türkiyəyə nizamlama prosesində iştirak etməyə imkan yaradır. Rusiya regionun iqtisadi inkişafının təhlükəsizliyini təmin etməkdə maraqlıdır. Təbii olaraq, bu prosesdə digər maraqlı tərəflərin - Türkiyə və İranın da iştirakına şərait yaranır. Atılan addımlar regionun inkişafı və xarici təsirlərlə "rəngli inqilab" senarilərinin qarşısının alınmasının ən yaxşı formasıdır.

**- Regionda təhlükəsizliyin təmin olunması və iqtisadi layihələrin reallaşması digər problemləri də həll edəcəkmi?**

- Təhlükəsizlik-iqtisadi inkişaf üçün əsasdır. Cənubi Qafqazın iqtisadi inkişafı üçün bir neçə təklif var. Azərbaycan, Türkiyə, Rusiya, İran, Ermənistan və Gürcüstanın da iştirakı ilə "3+3" platformasını təklif edirlər. İranın xarici işlər nazirinin bu yaxınlarda region ölkələrinə səfəri rəsmi Tehranın Qarabağın iqtisadi inkişafında iştirak etmək niyyətini təsdiqləyib. Rusiya, Azərbaycan və Ermənistandan olan ekspertlərdən ibarət üçtərəfli işçi qrupunun bir neçə görüşü də keçirilib. Bütün bunlar 2020-ci ilin noyabrında imzalanmış sazişin ümumi nəticəsidir. Görünən odur ki, Qarabağa sabitlik və təhlükəsizlik gəlir. Bu amillər həmin ərazilərin Azərbaycanla reinteqrasiyasını daha da sürətləndirəcək. Ortaq çalışmalar regionun iqtisadi potensialının reallaşdırılması üçün yaxşı mühit yaradacaq. Bütün bölgə ölkələri üçün ən optimal və səmərəli yol budur. Ermənistan da daxil olmaqla regionun bütün dövlətləri bu reallığı dərk etməlidir.

**İsmayıl Qocayev**

---

**Razi Nurullayev: "Əvəzində isə onlar oğurladıqları pulları Azərbaycanın iqtisadiyyatına sərf etsinlər"**

# Deputat maraqlı təklif verdi

## "Korrupsioner məmurların başına tac qoyulsun"

Sabiq vergilər naziri Fazil Məmmədov mülklərini satışa çıxarıb. Hazırda Şəmkirdəki malikanəsində yaşayan və səhhəti normallaşan F.Məmmədov bu rayondakı bütün obyektlərini satır. Artıq sabiq nazirin məşhur "Ekselsior" (Excelsior) hotel şəbəkəsini satdığı da iddia olunur.

Eks-nazirin Şəmkirdəki obyektlərini niyə birdən-birə satışa çıxardığı haqda isə məlumat yoxdur. Hər halda onun vəzifə cinayəti törətdiyi və indi peşman olduğu aydındır. Digər korrupsionerlər kimi, Fazil Məmmmədovun da bəsirət gözü açılıb. Lakin çox gec. Deməli, digərləritək o da cəzalanmalıdır. Bəs olmazmı sabiq nazirin mülkləri müsadirə olunsun? Yəni illərlə vəzifəsindən sui-istifadə edən məmurun indi belə rahatlıqla canını qurtarmasına imkan verilməlidir?!





**Millət vəkili Razi Nurullayev bu barədə fikirlərini "Şərq"lə bölüşüb. O, daha yaxşı yolun olduğu qənaətindədir:** "Əvvəllər düşünürdüm ki, vəzifəsindən sui-istifadə edənlərin vəsaiti əllərindən alınmalıdır. Lakin indi gecdir. 2000-ci illərin əvvəllərində olsa idi, bəli, məqsədəuyğun olardı. İndi isə talanan talanıb, oğurlanan oğurlanıb. Onların hamısını hesablamaq mümkün deyil. Belə olsa, gərək bütün məmurlar həbs edilsin. Odur ki, maliyyə amnistiyası tətbiq olunmalı və oğurlananların, heç olmasa, 30-40 faizi müsadirə olunmalıdır. Onsuz da korrupsioner məmurların pulu qurtaran deyil".

**R.Nurullayev, həmçinin maraqlı təkliflə çıxış etdi:** "Dediyim kimi, maliyyə amnistiyasının tətbiqini məqsədəuyğun hesab edirəm. İkinci bir tərəfdən isə görülən işlər nəticə verməlidir. Ancaq belədə insanlar islahatlara inanarlar.

Elə şərait yaradılmalıdır ki, korrupsioner məmurlar pullarını üzə çıxarmaqdan qorxmasınlar. Heç kim onlara heç nə deməz. Hətta status verilsin, başlarına tac qoyulsun. Amma əvəzində onlar həmin pulları xaricdə ev almağa, otel tikməyə yox., Azərbaycanın iqtisadiyyatına sərf etsinlər.

Otel də, məktəb də, universitet də ölkəmizdə açılsın. Yeni iş yerləri olsun. Belə olsa, nə hakimiyyət narazı qalır, nə oğru məmur. Həm də həbslər, ailə məşəqqətləri olmaz".

**Kənan Novruzov**



# "Yaralanmasına baxmayaraq Şuşada 5 saat döyüşüb"

## XXI əsrin Mixaylosunun döyüş yolu "Şərq"də



Qəhrəmanlar ölmür, onlar əbədiyyən yaşayırlar. Bəzən başqa simada, görkəmdə dünyaya yenidən gəlirlər. Ya da hamısı bir-birinə bənzərdir deyə belə düşünürük.
Hələ Azərbaycan kimi ərənlər diyarında igidlər tükənməz. Bir ölüb min diriləcək. Məsələn, Vətən müharibəsində sona qədər savaşan bir igid var. Onun adı da, ayaması da bizə tanışdır. O, şəhid Mehti Şıxəliyevdir, ləqəbi də " Mixaylo". Bu ismi daşıyan iki qəhrəmanımız: biri İkinci Dünya müharibəsində şücaət göstərən Mehdi Hüseynzadə, digəri Vətən savaşında mərdcə şəhadətə ucalan Mehti Şıxəliyev. Gəlin, 21-ci əsrin Mixaylosunu yaxından tanıyaq.

Mehti Yalçın oğlu Şıxəliyev 16 fevral 1996-cı il tarixində Hacıqabul rayonunun Meyniman kəndində dünyaya göz açıb. Orta məktəbi doğma kəndində oxuyub. 2014-cü ildə hərbi xidmətə yola düşüb. Əsgərliyini Tərtər bölgəsinin Çaylı kəndində Həsənqaya postu deyilən ərazidə keçirib. Sonra Xüsusi Təyinatlı Qüvvələrin 100 ballıq sınağından, 96 göstərici ilə 6 aylıq kursa qəbul olunub. Müddətdən artıq hərbi qulluqçu kimi XTQ-nin funksiyalarını və vəzifələrini yüksək səviyyədə mənimsəyib. Cəlilabad rayonunun Göytəpə qəsəbəsində "N" saylı hərbi hissədə xidmətə başlayıb. Gürcüstanda 1 aylıq ixtisas kursundan keçib. Aprel döyüşlərində də ən öndə savaşıb. Mehti "Cümhuriyyətin 100 illiyi yubileyi" medalı ilə təltif olunub. Qəhrəmanımız bir neçə il öncə gizir rütbəsinə layiq görülüb.

Vətən savaşında "Spayk" adlı tank əleyhinə ağır qurğunu təkbaşına dağa qaldırıb, onlarla erməni qulluqçusunu məhv edib. Onunla çiyin-çiyinə döyüşən dostları deyir ki, Şuşada silahdaşlarını xilas edərkən minamyot Mehtinin yanında partlayıb, qəlpə yarası alaraq, qələbəyə saatlar qalmış şəhadətə ucalıb.

***"Şərq"lə həmsöhbət olan Mehtinin anası Şəlalə xanım oğlu ilə müharibə zamanı danışdıqlarını xatırlayır:***

- Cəmi 3 dəfə əlaqə yarada bildi. Son söhbətimiz oktyabrın 20-si oldu. Müharibədən heç nə danışmazdı, sirr verməzdi. Ümumiyyətlə, Mehti sirr saxlayan uşaq idi, işi də ondan bunu tələb edirdi. Təkcə özümüzdən muğayat olmağımızı istəyirdi.

**- Yəqin döyüş yoldaşları şəhadətindən sonra sizə onun haqqında danışdılar..**

- Bəli, onlar Mehtinin əsl qəhrəman olduğunu söyləyirlər. Amma işi ilə bağlı nə isə demədiyi üçün biz bilmirdik. Mehti bütün döyüşlərdə iştirak edib, sona qədər savaşıb. Ona bir orden, bir neçə medal verilib. Fikrimcə, yenə medallara layiq görüləcək.

**- Silahdaşları Mehtinin müharibədəki şücaətindən nələr dedilər?**

- Bizə gələnlər onunla axıra kimi savaşa bilməyiblər, yaralanıblar. Biri dedi ki, o, yaralanana qədər Mehti 10 erməni tankını vurub. Sonda taqım komandiri olub. Şuşada yaralanmasına baxmayaraq, 5 saat döyüşüb. Deyirlər, qan axmadan şəhidlik zirvəsinə ucalıb. Ölüm kağızında noyabrın 9-u yazılıb.

**- Bəs hərbçi olmağa necə qərar verib?**

- Onun uşaqlıq arzusu idi. Hələ yeniyetmə vaxtlarından hərbçi olacağını deyirdi. Özü də Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmək istəyirdi. Arzusuna da çatdı. Lakin qisməti elə gətirdi ki, Mehti qəhrəmancasına Şuşada şəhid oldu.

**- Bir övlad kimi hansı xüsusiyyətləri ilə yadınızda qalıb?**

- Çox gözəl, ağıllı, həm də dəcəl uşaq idi. Pisi yaxşıdan ayırd edə bilirdi. Uşaq vaxtı yalnız tapança ilə, müharibə oyunları oynayırdı. Aza qane olurdu, evdəki vəziyyəti başa düşürdü. İdmanı, "turnik"də məşq etməyi, üzməyi, karateni çox sevirdi. Dərslərini da yaxşı oxuyurdu. Hər kəsdən seçilirdi, fərqli idi. Yadıma gəlir, o vaxt özünə "turnik" düzəltmişdi. Elə hər şey ordan başladı. Bir də xarici musiqiləri xoşlayırdı. Ən çox Enrike İqlesiası dinləyirdi.

**- Ləqəbi də " Mixaylo" olub. Səhifəsinə elə yazmısız.**

- Hə. Uşaqlıqdan Mixaylo deyirdik.

**- Həyata keçirə bilmədiyi bir arzusu varmı?**

- Onun xəyalları çox idi. Özünə şəhərdə ev alıb, ailə qurmaq fikrində idi. Sevdiyi vardı, mənə demişdi. Biz Mehti ilə həm də dost, sirdaş kimi idik. Ailədə ən çox birbirimiz bağlı olmuşuq. Ən çox məni istəyirdi, elə mən də onu. Ona görə bacı-qardaşları Mehtini qısqanırdılar. Qeyd edim ki, onun hərbçi olmağında da dəstəyim var.

**- Şəlalə xanım, sonda oğlunuzla bağlı yadınızda qalan bir xatirəni bölüşə bilərsinizmi...**

- Ona hələ az yaşında qeyrətli olmağı öyrətmişdim. Bizim məhəllədə qız uşaqları böyüyürdü. Bir dəfə sual verdim, dedim, Mehti küçədəki qızlar sənin bacılarındı, bilirsən? Qayıtdı ki, ana, şübhəsiz elədir. Həmişə Mehti onların qeyrətini çəkdi. Bir dəfə də söylədim, istəyirəm ki, hər kəndə gələndə, səni yaxşı mənada barmaqla göstərsinlər ki, o, Yalçının, Şəlalənin oğludur. Bu söz onun yadında qalıb. Kursu keçəndən sonra zəng elədi ki, xatırlayırsanmı, o vaxt mənə belə demişdin. İndi kursu keçdim, kənddə istədiyin kimi anacaqlar məni.

*Qeyd edək ki, Mehti Şıxəliyev ölümündən sonra "Qarabağ" ordeni və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.*








**"Şuşada silahdaşlarını xilas edərkən minamyot Mehtinin yanında partlayıb, qəlpə yarası alaraq, qələbəyə saatlar qalmış şəhadətə ucalıb"**

**Samirə Ərəbova**

# Yumşaq cəza iştahı artırır

## Büdcəni talayan məmurlarla daha sərt dildə danışılmalıdır

Dövlət əhalinin rifahı, firavan yaşaması üçün məqsədyönlü siyasət həyata keçirir. Cənab Prezident İlham Əliyev tələb edir ki, idarəçiliyə cəlb etdiyi insanlar əhali ilə normal rəftar etsin, onlara həvalə edilən işləri Konstitutsiya çərçivəsində görsün. Ölkə başçısı məhz bu istiqamətdəki davranışı və atdığı addımlarla böyük nümunələr sergiləyib.

Lakin sirr deyil ki, bu günə qədər bəzi məmurların fəaliyyətində ciddi problem və xoşagəlməz məqamlar üzə çıxıb. Onlar tutduqları vəzifədən sui-istifadə edərək dövlətin külli miqdarda vəsaitini mənimsəyiblər. Vəziyyət o yerə çatıb ki, ölkə başçısı bununla bağlı xüsusi açıqlamalar da verib.

Məmurların vəzifə başında olarkən yığdıqları sərvətlər barədə mətbuatda kifayət qədər məlumatlar yayılır. Xalqın rifahını düşünməyən bəzi vəzifə sahiblərinin yalnız Azərbaycanda deyil, başqa ölkələrdə özləri üçün qurduqları biznes, bank hesabları, villalar və bizim bilmədiyimiz daha nələr var...

Ortaya belə bir sual çıxır: hansı işlər görülməlidir ki, məmurlar xalqa vicdanla xidmət etsinlər. Və ən əsası elə bir sistem qurulsun ki, onlar vəzifə başında olarkən dövlət büdcəsini talamaq imkanları olmasın?

**Sualımızı cavablandıran AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə təəssüflə bildirib ki, ölkəmizdə məmur özbaşınalığı bitmək bilmir:**

"Məsələn, icra hakimlərinin həbsi davam etdiyi müddətdə paralel olaraq məlum olur ki, digər icra hakimləri də korrupsiya və rüşvət bataqlığındadırlar.

Nazirlərin və nazir müavinlərinin isə büdcəyə çıxışı daha geniş və sərbəstdir.

Ona görə də onların əməlləri tənzimlənə bilmir. Onlar acgözlük, rüşvətxorluq xislətində olduqları üçün dövlət büdcəsindən və xalqdan oğurlamağa başlayırlar. Düzdür, deyə bilərik ki, şəffaflıq üçün müvafiq sistem qurulmalıdır. Amma korrupsiya, rüşvət faktlarını Avropa və Amerikada da görürük.

**"Cəzalar simvolik olduğu üçün insanlar risk almağı xoşlayırlar"**



Bir çox hallarda deyirik ki, idarəçilik sistemi dəyişilməsə, korrupsiya və rüşvət davam edəcək və məmurlar daha da azğınlaşaraq milyarderlər siyahısına düşəcəklər. Hətta bəziləri artıq bu siyahıya düşüb. Fikrimcə, istənilən qanunvericiliklə buna nəzarət etmək mümkündür".

**T.Abbaslı vurğulayıb ki, hüquq-mühafizə orqanları qanunların işləməsində maraqlı olsa, heç bir məmur dövlət büdcəsini talan edə bilməz:**

"Bir sözlə, sözügedən hadisədə insan və siyasi iradə faktoru var. İnsan faktoru hər zaman oğurluğa meyillidir, siyasi hakimiyyət istəsə, bu kimi hallara son qoyar.

Hansı nazir həbs olunanda bütün var-dövləti müsadirə edildi və ona 40-50 il həbs cəzası verildi ki, digərləri bunlardan dərs götürsün? Bizdə belə bir misal yoxdur. Amerikada vergidən yayınan zaman 60 ilə qədər həbs nəzərdə tutulur. Amma bizdə həbs və cəzalar simvolik olduğu üçün insanlar risk almağı xoşlayırlar. Qanunsuz əməllərə görə adekvat cəza yoxdur. Hüquq-mühafizə orqanları, ədliyyə və məhkəmə sistemi işinin öhdəsindən gələ bilmir. Bu da qanunların acizliyinə görə deyil, siyasi iradənin olmaması və həmin vəzifədə oturanların öz işini görməməsindən irəli gəlir.

Düşünürəm ki, siyasi iradə olsa və qanunlar işləsə, məsələ birdəfəlik həllini tapar".

**Yeganə Bayramova**

# Kiçik evlərin böyük qəhrəmanları...



## Şəhid Nurlanın ailəsi köhnə mebel sexində yaşayır





**Yenə bir şəhid dastanı!.. Gənc yaşında başı göylərə dəyən daha bir qəhrəman!..**

**Qırx dörd günlük Vətən müharibəsi bizə kimləri tanıtmadı ki?!. Əsgərini gülldən qoruyan komandanları, komandirinin önündə sinəsini sipər edən əsgərləri. Və hamılıqla "Vətənə canımız fəda" deyənləri! Bəlkə də hər gün rastlaşdığımız cavanlar, ailə başçısı, kiminsə atası, kiminsə qardaşı idi onlar.**

Yanlarından ötüb keçirdik. Onlar da həmçinin. Həyat yollarında adi bir insan kimi addımlayırdılar. Bircə kəlməlik çağırış - Vətən çağırışı - həyatlarını və talelərini dəyişdi. Hər kəsin balası, hər kəsin qardaşı, hər kəsin atası, hamının sevimlisi, ən əsası isə Vətənin Oğlu oldular.

Onlardan biri də Nurlan Nuruzadədir.

Nurlan Tofiq oğlu Nuruzadə 2001-ci ilin avqust ayının 9-da Sumqayıt şəhərində doğulub. Ailədə 3 bacı, 3 qardaş olan Nurlan evin sonbeşiyi olub. Sumqayıt şəhər 17 saylı orta məktəbdə təhsil alıb. 2019-cu ilin oktyabr ayında həqiqi xidmətə çağırılıb və Ağcabədidə yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb. Sonra hərbi xidmətini Beyləqanda davam etdirən Nurlan topçu idi.

Zabitlər tərəfindən həmişə təqdir görən gənc topçu, əsgər yoldaşları arasında da hörmət sahibi olub. Vətən müharibəsinin ilk günündən döyüşlərə cəlb olunan topçumuz, Füzuli istiqamətində gedən ağır döyüşlərdə - 2020-ci il oktyabrın 1-də şəhidlik zirvəsinə ucalıb.

Hərbi xidmətə yola düşməsinin 1 ili tamam olan ərəfədə şəhadət şərbəti içən Nurlan böyüyüb boya-başa çatdığı Sumqayıt şəhərinin Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Oğlunun ölümünə dözə bilməyən ana Minaxanım Nuriyeva da 3 ay sonra vəfat edib. Ailə Nurlanın 3 yaşından - 16 ildir ki, Sumqayıt şəhərində, köhnə mebel sexində, şəraitsiz bir yerdə yaşayır. Nurlan Sumqayıt şəhərinin İkinci Qarabağ müharibəsində 7-ci şəhididir.

**Bacısı İlahə Nuriyeva deyir ki, Nurlan çətin şəraitdə böyüyüb boya-başa çatsa da, çox mərd və qorxmaz olub:**

- Anam Nurlanın itkisinə dözə bilmədi. Bizə qonşular deyirdi ki, sizin xəbəriniz olmur, anan gecələr Nurlanın portretinin qarşısında saatlarla ağlayır. Nurlanın şəkli yaşadığımız mikrorayonda vurulub. Hətta dəfələrlə olub ki, səhərlər anamın naləsinə ayılmışam. Nurlan topçu idi, heç nədən qorxmazdı. Müharibə zamanı da komandirlərinin yaddaşında igid və cəsur əsgər kimi iz qoydu.

...Hər gün onlarla vətəndaşımız, özəlliklə yeniyetmə və gəncimiz Sumqayıt Şəhidlər Xiyabanını ziyarət edir, Nurlanın, bütün şəhidlərimizin ruhuna dualar oxuyur, onların həyat yolu ilə maraqlanır və öyrənir. 19 yaşındaykən belə aqibət hər kəsə nəsib olmur. Əlbəttə, həyatlarının ən gözəl və gənc yaşlarında şəhidlik zirvəsinə ucalan oğullarımızın ruhu indi şaddır. Çünki onların uğrunda şəhid olduqları torpaqlarda üçrəngli müqəddəs bayrağımız dalğalanır. Şəhidlərimizin qanı yerdə qalmayıb. Azərbaycan Ordusu 44 gün içində xalqımıza möhtəşəm qələbə yaşadıb.

Bütün qoşun növlərimizin özünəməxsus xidmətləri ilə tarixi zəfərimizə töhfələr verdiyi 44 gün içində məhz qoşunlar arasında yüksək səviyyəli əlaqə, vahid komandanlıq altında birlik xüsusi rol oynayıb. Ali Baş Komandanımızın dəfələrlə vurğuladığı kimi, Ordumuz çağdaş tələblərə uyğun səviyyədə təchiz olunduğu texnika, texnologiyadan faydalanıb, lakin torpaqları azad edən, bayrağı qaldıran ƏSGƏRdir! O əsgərlərdən, topçulardan biri idi Nurlan! Adında, soyadında da keçən nuru əbədi ünvan seçən 19 yaşlı şəhid Nurlan bizim üçün necə əzizdirsə, onun ailəsi də o qədər əzizdir.

Hər nə qədər Nurlanın ailəsi "Vətən sağ olsun! Vətəni qorumaq hamımızın borcudur" deyirsə də, şəhidin ailəsinin rahat yaşayışını təmin etmək aidiyyətli qurumların vəzifə borcudur. Əsgərlərimiz Vətən qarşısında borclarını yerinə yetirdi. Rayon, şəhər rəhbərlərinin də vəzifə borcu onların ailələrinin ehtiyacları ilə maraqlanmaq, yaşayış şəraitlərini yaxşılaşdırmaqdır. Gənc övladı şəhid olan anaların məğrur durduğu ölkənin bayrağı enməz! Bayrağımız, dövlətimiz, Vətənimiz var olsun!

**Xədicə Səxavətqızı**



## Azərbaycanda məhkəməyə çıxarılan dustaq özünə xəsarət yetirib

**Gəncə şəhərində 31 yaşlı dustaq özünə kəsici-deşici alətlə xəsarət yetirib.**

"Report"un Qərb Mərkəzinin məlumatına görə, 1990-cı il təvəllüdlü Vasif Tağızadə xəstəxanaya yerləşdirilib, vəziyyəti orta-ağır olaraq qiymətləndirilir.

*Qeyd edək ki, V.Tağızadə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Gəncə şəhərində yerləşən 2 saylı İstintaq təcridxanasında saxlanılır. Onun bu gün məhkəmə prosesi keçirilib.*

## Baş infeksionist lüzum görmür

### "5 yaşa qədər uşaqların maska taxması tələb olunmur"



**"Ümumdünya Səhiyyə Təşkilatının uşaqların maskadan istifadəsiylə bağlı göstərişləri var. 5 yaşa qədər uşaqların maska taxması tələb olunmur".**

Bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov "Məktəblərdə COVID-19" mövzusunda canlı yayımda çıxışı zamanı bildirib.

*O qeyd edib ki, maskadan düzgün istifadə edilmirsə, o nəinki virusdan qorumur, əksinə infeksiya mənbəyinə çevrilir:*

"Əgər əlimizi maskanın ön tərəfinə vurub sonra isə əlimizi üzümüzə, ağzımıza, gözümüzə vuracağıqsa, bu yoluxma üçün çox böyük şəraitdir. Uşaq kontingentinə də bunu izah etmək olmur. Lakin 6-11 yaş qrupunda olan uşaqlara bunu izah edərək maskadan düzgün istifadəni müəyyən qədər təmin etmək olar. Yenə qeyd etmək lazımdır ki, maska o vaxt effektiv olur ki, ondan düzgün istifadə olunsun".

Bir müddət öncə Vətən müharibəsi iştirakçısı, qazi Quliyev Eldar sosial problemlərini və hazırkı vəziyyətini "Şərq" vasitəsi ilə lazımi yerə çatmasını istəmişdi.

Ötən gün isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həmin qazimizin özünüməşğulluq proqramına cəlb edildiyini bildirib.

# Nazirlik qazi haqqında yalan məlumat yayıb

## Vətən müharibəsi iştirakçısına nə ödəniş verilib, nə də iş yeri açıblar

Nazirlikdən verilən məlumata görə, Astara rayon sakini Quliyev Eldar Fərzəli oğlu da Vətən müharibəsində iştirak edərək qələbəmizə öz töhfəsini verib.

Döyüşlər zamanı xəsarətlər almış Q.Eldar bu günlərdə evində ziyarət edən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları onun əlilliyinin qiymətləndirilməsinin aparılacağı barədə məlumat veriblər. Bildirilib ki, əlillik dərəcəsi təyin edildiyi halda qaziyə birdəflik və aylıq sosial ödənişlər veriləcək.

Ailənin sosial vəziyyəti öyrənilib. Müəyyən olunub ki, E.Quliyev müddətdən artıq hərbi xidmət edən şəxsdir. Anası I dərəcə əlilliyi olan şəxs kimi aylıq pensiya və təqaüdlə təmin edilir.

Ailəli olan Eldarın həyat yoldaşının hazırda işləmədiyi və istəyi nəzərə alınaraq o, un məmulatlarının istehsalı sahəsi üzrə kiçik müəssisəsini qurmaq üçün özünüməşğulluq proqramına cəlb olunub. Biznes planı uğurla müdafiə etdikdən sonra aktivlərlə təmin olunacaq.

Xəbərin nə dərəcədə dəqiq olduğunu və qazimizin sosial vəziyyətinin, eləcə də səhhətini öyrənmək üçün onun özü ilə əlaqə saxladıq.



*E.Quliyevin cavabları isə ƏƏSMN-in verdiyi xəbərlərlə üst-üstə düşmədi. Qazi "Şərq"ə bildirdi ki, bir ay yarım öncə gəlib, gediblər. Ortada nə biznes planı var, nə də əlilliyə görə sosial ödəniş:* "Hazırda bu barədə xəbəri ilk sizdən eşidirəm. Nəticə barədə heç bir məlumatım yoxdur".

"Nazirliyin verdiyi məlumatda deyilir ki, ananıza 1-ci qrup əlil olduğu üçün təqaüd verilir, sizin də əlillik dərəcəniz təsdiqlənəndən sonra sosial müavinətin verilməsi nəzərdə tutulub" sualına qazi belə cavab verib.

"Xeyr. Elə hamısı sözdə deyir, amma ortada yenə də heç nə yoxdur. Əslində, nazirlik maraqlansa daha yaxşı olar".

Qazi səhhəti ilə bağlı problemlərin hələ də qaldığını, xəstəxananın "yer yoxdur" - deyərək onu qəbul etməməsindən gileylənib: "Heç kim baxmır. Dərmanlarımı belə özüm alıram. Nə vaxta qədər evdə uşaqların qızılını qoyub faizə pul götürüm?

Xəstəxanaya getdim, qəbul etmədilər. Yalandan dedilər ki, hələ yer yoxdur. Yer olanda gələrsən. Bəs mən yerdən pul tapıb özümü müalicə edim?".

**Ağarza Elçinoğlu**

# Navalnının tərəfdarları məhəllə etirazlarına köklənib



Həbsdə olan müxalifət lideri Aleksey Navalnının komandası növbəti etiraz aksiyasına hazırlaşır. Bu barədə "The Moscow Times" nəşri məlumat yayıb. Navalnının köməkçilərindən biri Leonid Volkov bildirib ki, yeni etiraz aksiyalarında tərəfdarlar müxtəlif binaların həyətlərinə toplaşaraq müəyyən bir müddət ərzində mobil telefonun fənərlərini yandıracaq:

"Bu taktika Belarusda keçən il keçirilən seçki etirazlarına qarşı hücumun ardından görülən məhəllə etirazları kimi baş tutacaq. Bu dəfə polislərin qarşısını ala bilməyəcəyi və hər kəsin iştirak edə biləcəyi bir tədbir keçirməliyik".

## "Rusiyada hazırda cərəyan edən proseslərdə xarici dairələrin rolu istisna olunmur"

**Mövzu ilə bağlı politoloq Nurlan Qələndərli "Şərq"ə açıqlamasında vurğulayıb ki, Rusiyada etiraz aksiyaları ilə müşayiət olunan proseslərin strateji episentri bu ölkənin sərhədlərindən kənardadır.** Onun sözlərinə görə, proseslər geostrateji məsələlərlə birbaşa əlaqəlidir və qlobal siyasətin tərkib hissəsidir: "Məlumdur ki, Rusiya dünya siyasəti və beynəlxalq münasibətlər sistemində mühüm təsir imkanlarına malik olan güc mərkəzlərindən biridir. Ona görə də hegemon qüvvələr bu dövlətlə geostrateji rəqabət, nüfuz dairələri - təsir zonaları uğrunda mübarizədə vaxtaşırı müəyyən həmlələr edirlər. Bu səbəbdən Rusiyada hazırda cərəyan edən proseslərdə xarici dairələrin rolu istisna olunmur. Burada məqsəd qısamüddətli ekstremal şərait formalaşdırmaq, sabitlik və təhlükəsizliyə real təhdid vasitəsilə müəyyən mesajlar verməkdir".

*"Əsas strateji hədəf isə bu dövləti müəyyən geosiyasi güzəştlərə məcbur etməkdir"*

*N.Qələndərli qeyd edib ki, əsas strateji hədəf isə bu dövləti müəyyən geosiyasi güzəştlərə məcbur etməkdir:* "Sözügedən etiraz aksiyalarının, ictimai-siyasi konfrontasiyanın uzunmüddətli olmayacağını düşünürəm. Bu, qısamüddətli prosesdir və hər hansı bir ciddi siyasi dəyişikliyə səbəb olmayacaq. Hadisələrin eskalasiya edəcəyinə, bölgəyə sıçrayacağına dair proqnoz verən analitiklərin əksinə olaraq düşünürəm ki, indi bu ölkə daxilində müşahidə olunan proseslər müəyyən müddətdən sonra zəifləyəcək. Yəni olayların "domino effekti" ilə regionda yayılması, daha geniş coğrafiyanı əhatə etməsi gözlənilmir".

**Aynurə Pənahqızı**

## Rusiyaya qarşı ciddi ittifaq yaradılır

### ABŞ Qara dəniz hövzəsindəki ölkələri eyni çətir altında birləşdirdi



**ABŞ-ın istəyi ilə Ukrayna, Gürcüstan və Moldova arasında hərbi ittifaqın yaradılması planlaşdırılır.**

Bu barədə Polşa mətbuatı yazıb. Məlumatlara əsasən, Ukraynanın Xarici işlər naziri Dmitri Kuleba hər üç ölkə arasında bununla bağlı məsləhətləşmələrə artıq başlanıldığını bildirib: "Üçtərəfli birlik ideyasına gəlincə, mən ABŞ-ın dövlət katibi Toni Blinkenə dedim ki, ABŞ Qara dəniz və Mərkəzi Avropa bölgəsində Ukraynaya etibarlı tərəfdaş kimi arxalana bilər. Sizi inandırıram ki, Ukrayna, Gürcüstan və Moldova bu istiqamətdə fəal hərəkət edirlər". **Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib ki, ABŞ Rusiyaya qarşı yeni regional hərbi ittifaq formalaşdırmaqla, bu ölkələrin NATO-ya inteqrasiyasını nəzərdə tutur.** Politoloq qeyd edib ki, ABŞ-ın belə bir ölkələrdən Rusiyaya qarşı bir hərbi ittifaqdan istifadə etməsi mümkün deyil: "Sadəcə olaraq, burada bir sıra siyasi məsələlər var. Əsas plan bu ölkələrdə Rusiyanın təsirinin tam qarşısını almaqdan ibarətdir. ABŞ-ın yeni administrasiyası Qara dəniz hövzəsində bu ölkələri eyni çətir altında birləşdirib. Əsas məqsədi isə burada öz geosiyasi təsirini artırmaqdır. Rusiyaya qarşı bu ittifaqların formalaşması ciddi bir geostrateji hadisədir. Hesab edirəm ki, Moskva bunu cavabsız qoymayacaq".

**Aynurə Pənahqızı**

## Dumanlı hava yox, çirkli hava sağlamlığa təhdiddir

### "Bakı şəhərindən çıxıb, hansısa rayona gedərkən təmiz havada bu durum dərhal hiss olunur"



**Son günlər ölkəmizdə dumanlı və tozlu hava şəraiti hökm sürür. Belə havanın bir çox insan səhhətinə mənfi təsiri qaçılmazdır.**

Araşdırmalara görə, duman və tozlu hava şəraiti öncə insanların əsəb sisteminə təsir göstərir. Havada toz və duman qatının olması psixoloji problemlər yaradır və insanların psixoloji durumu pozulur. Bu cür hava şəraitinin orqanizm üçün də müəyyən zərərlərinin olduğu iddia olunur.

**İnsan orqanizminin iqlim dəyişikliklərinə adaptasiyasının yüksək səviyyədə olduğunu deyən tibb elmləri doktoru, professor-həkim Adil Qeybulla "Şərq"ə bildirib ki, insanlar heyvanlardan fərqli olaraq belə havadan özlərini qorumaq imkanına malikdirlər:** "Hesab edirəm ki, duman və tozlu hava, temperaturun dəyişməsi, müxtəlif kataklizmlərə qarşı insanın adaptasiya sistemi kifayət qədər yüksək inkişaf edib. Lakin bir məqamı nəzərə almaq lazımdır: Əslində dumanlı hava sağlamlıq üçün ciddi təhdid deyil.

Amma çirkli hava, tozun olması, xüsusilə tikinti işlərinin getdiyi Bakı şəhərindəki tozlar daim nəfəs yollarına keçir".

Professor son zamanlar Bakının çirklənmə səviyyəsinin yüksəldiyini söyləyib: "Çünki keyfiyyətsiz, dizel yanacağı ilə işləyən və havaya zərərli maddələr buraxan avtomobillərin sayı günü-gündən artmaqdadır. Bütün bunlar ekoloji vəziyyəti pisləşdirir. Bakı şəhərindən çıxıb, hansısa rayona gedərkən təmiz havada bu durum dərhal hiss olunur. İnsan orqanizminə təhdid yaradan belə faktorlardır, nəinki dumanlı hava. Dumanlı havanın olması sadəcə iqlim dəyişkənliyidir. Bilirik ki, qar yoxdur və qış fəsli özü-öz strukturu ilə dəyişir. Təbii ki, qış fəsli olduğu üçün dumanlı havanı da normal qarşılamaq lazımdır".

**Yeganə Bayramova**

## Təkbətək söhbətlər üçün əla fürsət yaranır

Gürcüstanın baş nazirinin müavini, Xarici işlər naziri David Zalkaliani yaxın zamanlarda Azərbaycana səfər edəcək. O, bu barədə keçirdiyi brifinqdə məlumat verib. Nazirin sözlərinə görə, qonşu ölkələrə səfərlər zamanı əsas müzakirə mövzularından biri iqtisadi diplomatiya ilə bağlı olacaq: "Səfərlər çərçivəsində Gürcüstan üçün vacib olan geosiyasi layihələr, ölkəyə əlavə yüklərin cəlb olunması məsələləri də nəzərdən keçiriləcək".



Gürcü nazirin Bakı səfərində regional layihələr müzakirə masasına çıxarılacaq

D.Zalkaliani bildirib ki, Gürcüstan üçün geosiyasi layihələrin stimullaşdırılması çox önəmlidir. Əlbəttə, GUAM PA-ya Gürcüstanın sədrlik etməsindən sonra belə bir səfərin təşkil olunması xüsusi əhəmiyyətlidir. Bu, iki region ölkəsinin qarşılıqlı əlaqələrini bir az da inkişaf etdirəcək.

**Gürcüstan nazirinin ölkəmizə səfəri barədə danışan politoloq İlqar Vəlizadə müzakirə predmetlərini açıqlayıb:** "Bildiyiniz kimi, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov bu yaxınlarda qonşu ölkəyə səfər etmişdi. Lakin onun gürcüstanlı həmkarı üzrlü səbəbdən görüşə qatıla bilməmişdi. Fikrimcə, bu, cavab səfəridir. Əlbəttə, təkbətək söhbətlər üçün də yaxşı fürsətdir. Müxtəlif məsələlər, o cümlədən GUAM-ın taleyi, ikitərəfli və çoxtərəfli əməkdaşlıq, regional layihələr müzakirə masasına çıxarılacaq. Postmüharibə dövründə Azərbaycan-Gürcüstan əlaqələrinin təhlil edilməsi də şübhəsizdir".

**İ.Vəlizadənin fikrincə, Gürcüstanı maraqlandıran ən mühüm məsələ nəqliyyat infrastrukturu ilə bağlıdır:** "Bəziləri düşünürlər ki, Naxçıvan-Mehri dəhlizi açılandan sonra Bakı-Tbilisi-Qars yolu öz əhəmiyyətini itirəcək. Ancaq belə deyil. Şərqdən Qərbə yüklərin daşınmasında həmin yolun müstəsna əhəmiyyəti var. İkinci bir tərəfdən isə mövcud siyasi-hüquqi baza Bakı-Tbilisi-Qars yolunun arxa plana keçməsinə imkan verməyəcək".

**Kənan**



## Ermənistanda əsgər yaxınları etiraz aksiyası keçiriblər

**Ermənistanın paytaxtı Yerevanda İkinci Qarabağ müharibəsi zamanı itkin düşən hərbçilərin valideynləri və yaxınları etiraz aksiyası keçiriblər.**

Sputnik Ermənistan xəbər verir ki, onlar itkin düşən hərbçilərin tapılmasını tələb ediblər.

*Aksiyada Ermənistanın Eçmiadzin (Üç kilsə) rayonunda dislokasiya olunan kimyəvi hücumdan müdafiə bölməsinin 40 hərbçisinin yaxınları iştirak ediblər. Onlar bildiriblər ki, Qarabağ müharibəsi zamanı yaxınları olan hərbçilər Zəngilana göndərilib və o vaxtdan onlardan bir xəbər yoxdur.*

*Qeyd olunur ki, bu dəfə aksiya iştirakçıları öz uşaqlarını da aksiyaya gətiriblər. Uşaqlar "Atamı qaytarın", "Atamı tələb edirəm", "Biz öz atamızı tələb edirik" şüarları yazılmış plakatları tutublar.*

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



Azərbaycanın tam və qəti qələbəsilə başa çatmış 44 günlük Vətən müharibəsi Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratdı. Bu reallıqların formalaşması əlbəttə ki, ilk növbədə Prezident İlham Əliyevin davamlı olaraq həyata keçirdiyi məqsədyönlü xarici siyasətin və güclü siyasi iradəsinin nəticəsi idi. Eyni zamanda Azərbaycan-Türkiyə tərəfdaşlığı və sarsılmaz dostluğu bölgədə yeni reallıqların bütün dünya tərəfindən qəbul edilməsində önəmli rol oynadı.

# Azərbaycan Qarabağda mərhələli şəkildə istəyinə çatır

## "Müəyyən qüvvələr yenə də erməni cəmiyyətini aldatmaqla məşğuldur"

Bu tərəfdaşlıq regionda sadəcə sülhün və təhlükəsizliyin deyil, həm də qonşu dövlətlərin iştirakı ilə gələcəkdə həyata keçiriləcək yeni birgə layihələrin təhlükəsizlik təminatına zəmin yaradır. O səbəbdən iki ölkənin müharibədən sonrakı dövrdə birgə addımlaması ümumilikdə Cənubi Qafqazın sabitliyi, təhlükəsizliyi və davamlı inkişafı üçün böyük önəm kəsb edir. Şübhə yox ki, bundan sonra digər region ölkələri də beynəlxalq nəqliyyat dəhlizlərinin şaxələndirilmiş şəbəkəsinin yaradılması işində fəal iştirak edəcəklər. Bu isə ölkəmizin həm regional, həm də beynəlxalq nüfuzunun daha da yüksəlməsinə səbəb olacaq.

Göründüyü kimi 10 noyabr və 11 yanvar üçtərəfli anlaşmaları Ermənistandakı revanşist qüvvələrin hay-küyünə və separatçıların təxribatlarına rəğmən, ardıcıl reallaşmaqdadır. Yerevan hökuməti bəzi hallarda könülsüz olsa belə mühüm sənəddə yer alan maddələrin icrasına məcbur qalır. Rəsmi Bakının humanitar məqsədlə yaradılmasına imkan verdiyi Laçın dəhlizi də təxribatçıların üzünə bağlanıb. Xəbər verdiyimiz kimi bir neçə gün əvvəl keçmiş fransalı merin rəhbərliyi ilə bir qrup əcnəbi jurnalist və ictimai xadim Qarabağa getmək məqsədi ilə Ermənistana səfər ediblər. Yerevanda rəsmi şəkildə akkreditə olunan fransızlar Xankəndiyə yola düşsələr də, Rusiya sülhməramlıları onları Laçın dəhlizində saxlayıb və Azərbaycana buraxmayıblar. Sülhməramlılar onların Azərbaycan ərazisinə getdiklərini və Ermənistandakı akkreditasiyanın etibarsız olduğunu bildiriblər. Vurğulayıblar ki, əgər getmək istəyirlərsə, mütləq Azərbaycanda akkreditasiyadan keçməlidirlər. Çarəsiz qalan "qonaqlar" kor-peşman Ermənistanın yolunu tutublar. Deməli, bundan sonra Laçın dəhlizi təxribatçılar və terrorçular üçün "tranzit vasitəsi" rolu oynaya bilməyəcək. Sevindirici haldır ki, artıq rəsmi Bakının postmüharibə dönəmindəki qətiyyəti və prinsipiallığı tədricən öz işini görür. Ötən gün yayılan xəbərə görə, Ermənistanda orduya qış çağırışı başlasa da, çağırışçıların Qarabağda xidmət keçməyəcəyi məlum olub. Yeni Azərbaycan ərazilərinin hazırda Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasına daxil olan hissəsinə əsgər göndərilməsi dayandırılıb. Ermənistanın kapitulyasiyasından sonra Qarabağda qalan erməni hərbi qüvvələrinin taleyinin necə olacağı barədə neçə vaxtdır müzakirələr gedir. Əvvəlcə bu birləşmələrin tərkibində yer alan və müharibədə iştirak edən Ermənistan vətəndaşları məzuniyyətə geri çağırılıblar. Onların yenidən Qarabağa göndərilməsinə cəhdlər edilsə də valideynlər aksiyalar keçirərək övladlarının Azərbaycan ərazilərinə göndərilməsinə imkan verməyəcəklərini bildiriblər. Ardınca qondarma "dqr"in "özünümüdafiə ordusu"nun ləğv ediləcəyi haqda məlumatlar yayılıb. Bunlar həm də erməni əhalinin tədricən ölkəmizin ərazi bütövlüyünü tanıması anlamına gəlir. Ümid edək ki, bu tendensiya getdikcə güclənəcək və yekunda Ermənistan adında süni dövlətin rəhbərliyi ictimai rəydən çıxış edərək qonşu ölkələrlə dinc-yanaşı yaşamaq yolu tutacaq. Rusiyalı tanınmış ekspert İqor Korotçenko da "Moskva-Baku" portalına bildirib ki, bəyanatda göstərilənlərin icrasına çalışmaq lazımdır. Başqa alternativ yoxdur".

Rəsmi Bakının əlini gücləndərin mühüm faktorlar sırasında Ağdamda fəaliyyətə başlamış Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi də var. Vurğulandığı kimi, Monitorinq Mərkəzi təkcə Qarabağda deyil, ümumilikdə Cənubi Qafqaz regionunda sülh və əmin-amanlığın bərqərar olunması, eləcə də region ölkələri arasında qarşılıqlı əməkdaşlıq perspektivlərinin reallaşması baxımından böyük əhəmiyyət kəsb edir. Sirr deyil ki, hərbi əməliyyatların başa çatması öz-özlüyündə hələ bölgədə və regionda sülh və əmin-amanlığın bərqərar olacağına zəmanət ola bilməz. Bunun üçün keçmiş münaqişə zonasında bundan sonrakı proseslərə nəzarət edə biləcək xüsusi quruma ehtiyac var idi. 2020-ci il 10 noyabr tarixdə Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri tərəfindən imzalanmış üçtərəfli bəyanatda da atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması nəzərdə tutulurdu. Həmçinin bu məqsədlə Türkiyə və Rusiya arasında Birgə Mərkəzin yaradılmasına dair razılıq əldə edilmişdi. Məhz həmin razılaşmanın nəticəsi kimi yanvarın 30-da Ağdam rayonu ərazisində yaradılmış Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətə başladı. Qısa zaman keçsə də, artıq Mərkəzin fəaliyyətinin müsbət impulsları sezilməkdədir. Əksəriyyətin fikrincə, yeni yaradılmış Mərkəzdə məhz Türkiyə və Rusiya sülhməramlılarının birgə fəaliyyət göstərməsi Azərbaycanın maraqlarına tam uyğundur. İlk növbədə bu mərkəzin yaradılması ilə digər qüvvələrin bölgədə tərəf olmaq cəhdləri aradan qalxmış oldu. Türkiyə artıq tam artıq müharibə bitib və Azərbaycan qalib tərəfdir: "Bu gün Qarabağda yekun nizamlamanın açarları Bakı və Moskvadadır. Ermənistanda hakimiyyət başında kim olur-olsun, o, Paşinyanın imzaladığı öhdəlikləri yerinə yetirmək məcburiyyətindədir. Ermənistanın hərbi-siyasi çöküşü elə bir faktordur ki, hansısa siyasətçinin iqtidara qayıdışı ilə onu dəyişmək mümkün olmayacaq. Baş verənləri geri qaytarmaq mümkün deyil, yalnız üçtərəfli rəsmi qaydada atəşkəsə nəzarət etmək işində Rusiya ilə birgə həlledici rol oynamaqdadır.

**Millət vəkili Aydın Mirzəzadə "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan dövlətinin, şəxsən cənab İlham Əliyevin apardığı düşünülmüş siyasət nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü təmin etməkdədir.** Deputatın sözlərinə görə, 44 günlük müharibə nəticəsində Ermənistan kapitulyasiyaya imza atmağa məcbur qaldı və torpaqlarımız işğaldan azad edildi: "Dövlət başçısının ifadələri ilə desək, regionda yeni reallıq yarandı. Artıq 27 sentyabr 2020-ci il tarixinə dönüşdən söhbət gedə bilməz. Suverenliyimizin bərpa edilməsi, torpaqlarımıza sahib çıxmağımız və bütün ərazilərimizdə qanunun aliliyinin təmin olunması istiqamətində atdığımız addımlar göz önündədir. Azərbaycan ərazilərinə istənilən şəxsin daxil olması rəsmi Bakının icazəsi ilə mümkündür. Dünya ölkələri bunu belə qəbul edir. Ermənistan da bu reallığı dərk etməlidir. Yerevan mövcud reallıqları qəbul etməklə ilk növbədə öz müstəqilliyini qoruyacaq və bundan sonrakı inkişafını təmin edəcək. Eyni zamanda Azərbaycanla münasibətlərdən mümkün faydalar əldə etmək imkanı qazanacaq. Əks halda itirən tərəf Ermənistan olacaq. Cənab Prezident dəfələrlə çıxışında vurğulayıb ki, əgər kimsə Azərbaycana qarşı yenidən təhdid yaratmaq fikrinə düşərsə, 10 qat cavabını alacaq. Bunu etmək üçün Azərbaycanın kifayət qədər imkanları, ən əsası siyasi iradəsi var. Bu siyasi iradə ərazi bütövlüyümüzə, xalqın Prezidentin apardığı siyasətə dəstəyinə və günün reallığına söykənir".

*Parlament üzvü vurğulayıb ki, rəsmi Bakı heç bir addımı ilə beynəlxalq hüququn normalarını pozmur:* "Fransadan gələn nümayəndələrin Azərbaycana buraxılmaması və Ermənistan əsgərlərinin ancaq öz qanuni ərazilərində xidmətə cəlb olunması ərazi bütövlüyümüzün addım-addım təmin edilməsi deməkdir. Digər məsələlər də ardıcıl surətdə təmin ediləcək. Sülhməramlıların vəzifəsi bölgədə sülhü bərqərar etmək, Laçın dəhlizindən Azərbaycan ərazisinə qanunsuz girişlərin qarşısını almaqdır. Hesab edirəm ki, Naxçıvana quru yolunun açılması, kommunikasiyaların bərpa edilməsi problemin həllinə maksimum dəstək verəcək. İndiki məqamda Ermənistan daxilində yeni düşüncə oyanışı olmalıdır. Əgər bu baş verərsə, Ermənistan udacaq, əks təqdirdə Azərbaycan yenidən öz iradəsini ortaya qoyacaq".

Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov da "Şərq"ə bildirib ki, Azərbaycan 44 günlük müharibədən sonra mərhələli şəkildə öz hədəflərinə çatır. Analitik bildirib ki, bütün məsələlər və çözülmüş problemlərlə bağlı rəsmi açıqlamalar gündəmə gəlməsə də, həm Laçın dəhlizi, həm Qarabağa qanunsuz səfərlər, həm də bölgədə erməni silahlılarının tərksilah edilməsi ortada qəti qərarların olduğunu göstərir: "Bizim üçün əsas hədəf odur ki, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunsun, suverenliyimiz bütün torpaqlarımızda təmin edilsin. Yaxın günlərdə Xankəndi və ətraf rayonlarda Azərbaycanın yurisdiksiyası təmin olunacaq və üçrəngli bayrağımız hər yerdə dalğalanacaq. Son günlər Ermənistandakı revanşist qüvvələrin, Qarabağdakı separatçıların bəzilərinin uydurma bəyanatları ilə qarşı-qarşıyayıq. Müəyyən qüvvələr yenə də erməni cəmiyyətini aldatmaqla məşğuldur. Lakin istənilən halda üçtərəfli anlaşmalarda təsdiqlənmiş qərarların icrası göstərir ki, rəsmi Bakı düşmənlərin bütün təxribatlarına rəğmən, səbir və təmkinlə öz məqsədlərinə çatmaqdadır. Üçtərəfli bəyanatın bütün şərtləri qısa müddət ərzində tamamilə reallaşacaq".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Risk böyükdür

## 65 yaşdan yuxarı insanlar peyvəndə maraqlı olmalıdırlar

Ölkədə koronavirus əleyhinə peyvəndləmənin ikinci mərhələsi icra olunur. Birinci mərhələdə əsasən tibb işçiləri vaksinasiya edildi. Səhiyyə işçilərinin 70 faizinin COVID-19 əleyhinə vaksinasiyadan keçdiyi açıqlandı. Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, ölkə üzrə 62.398 tibb işçisi peyvənd olunub. İndiyə qədərsə ölkəyə cəmi 848 min doz vaksin gətirilib.



İkinci mərhələdə isə yaşı 65-dən yuxarı olanların vaksinasiyası keçirilir. Azərbaycan COVAX platformasında iştirak edir, eyni zamanda vaksinlərin əldə edilməsi üçün ikitərəfli razılaşmalarda iştirak edir. Azərbaycan COVAX platforması çərçivəsində "Sinovac" şirkətinin 2 milyon doza "CoronaVac" vaksini alacaq. Eyni zamanda, "Sinovac" şirkəti ilə danışıqlar aparılır. Ümumilikdə "Sinovac" şirkətinə 4 milyon doza vaksin sifariş edilib. İcbari Tibbi Sığorta Agentliyinin məlumatına görə, ikinci mərhələdə peyvənd olunacaq şəxslər yaşı 50 və daha çox olub ən azı bir xroniki xəstəliyi olanlar, tənəffüs xəstəlikləri, hemodializ, şəkərli diabet, piylənmə kimi xroniki xəstəlikləri olanlar, təhsil və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN Xidmət" və DOST mərkəzləri, ictimai nəqliyyat sektorunun, telekommunikasiya operatorları və provayderlərinin və poçt sahəsində birbaşa əhali ilə təmasda olan işçilərin və bank sektorunun birbaşa əhali ilə təmasda olan hissəsi, yüksək riskli şəraitli işlərdə (cəmiyyətin fəaliyyəti üçün həyati vacib sahələrdə çalışan və əhəmiyyətli dərəcədə daha yüksək riskli sahələrdə çalışan - milli və regional təhlükəsizlik, ədliyyə, maliyyə və s.) çalışan şəxslərdir. Yaşı 65 üstü olanların vaksinasiyasına gəlincə, onlar yaşadıqları ərazi üzrə poliklinikalara zəng edib özləri haqqında lazım olan məlumatları verməlidir. Poliklinika özü onları sistemdə qeydiyyata alacaq. Ondan sonra da lazım olan vaxt onlara SMS və ya zənglə bildiriş gələcək, onlar da poliklinikaya gedəcək. Qeydiyyatdan keçdikdən sonra vətəndaşlara sms-lə məlumat veriləcək və onlar yalnız bundan sonra peyvəndin birinci dozasını vurdura bilər.

### "Heç olmasa, 3 milyon nəfər peyvənd olunsa, rahat nəfəs ala bilərik"

İkinci dozanın vurulma tarixi və digər məlumatlar isə vətəndaşlara tibb məntəqəsində veriləcək "Məlumat forması"nda öz əksini tapacaq, həm də onlara sms-lə ikinci dozanın vurulma tarixi bildiriləcək.

Qeyd edilir ki, həm paytaxt, həm də regionlarda yaşı 65-dən çox olanların peyvəndlənməsi onların qeydiyyatda olduğu poliklinikalarda aparılır. TƏBİB-in İnfeksion xəstəliklər üzrə işçi qrupunun üzvü Nəzrin Mustafayeva bildirib ki, insanlar növbəlilik prinsipinə əməl etməklə poliklinikalarda peyvənd oluna bilər: "65 yaşlı şəxslər internet üzərində görüş saatı müəyyən edərək poliklinikaya müraciət edə bilər. Ancaq bu, o demək deyil ki, görüş saatı almadan peyvənd oluna bilməzsən. Şəxs peyvənd olunmaq üçün poliklinikaya telefonla zəng edərək gedə bilər. Poliklinikaya birbaşa gedənlər də geri qaytarılmayacaq. Amma görüş saatını müəyyən etmək həm tibb işçiləri, həm də peyvəndə görə müraciət edən şəxs üçün rahat olacaq".

### Peyvənddən niyə çəkinirlər?

*İsrailin Xadassa Eyn-Kerem xəstəxanasının universitet klinikasının şöbə müdiri, immunoloq, professor Polina Stepenskaya "RİA Novosti" ilə söhbətində insanların niyə peyvəndləmədən qaçdığına aydınlıq gətirib:* "Təəssüf ki, əsl alimlərin səsini eşitmirik, ancaq əsassız, qorxuducu xəbərdarlıqlar səslənir. Hərə bir tərəfdən bu cür bəyanatlar verir, sonra da təəccüblənirlər ki, insanlar peyvənddən qaçırlar". Professor ümumilikdə İsrailin Səhiyyə Nazirliyinin bu barədə narahatlığını əbəs sayıb. Bu ölkədə 3.5 milyon nəfərə peyvənd vurulub. Daha 700 min insan koronavirusa yoluxub. Yəni 4.2 milyon insanın artıq immuniteti var. Ancaq Stepenskayanın sözlərinə görə, ölkədə neçə uşağın COVID-19-a tutulduğu yoxlanılmayıb: "Çünki onlar xəstəliyi simptomsuz olaraq keçiriblər. Hesab edirəm ki, biz nəhəng addımlarla kollektiv immunitetə yaxınlaşırıq". "Adi koronavirus üçün belə hesablanıb ki, kollektiv immunitetin yaranması üçün insanların 43-75 faizi immunlaşdırılmış olsun - yəni ya xəstələnib sağalsın, ya da peyvənd olunsun. Bu, elmi mətbuatda dərc olunmuş məlumatlardır", - professor deyib. O əlavə edib ki, hətta COVID-19-un Britaniya ştammına yoluxma şərtlərində əhalinin 75 faizinin immunitetinin olması yetərlidir.

Bundan bir qədər öncə Knessetdə ölkənin İctimai Səhiyyə Xidmətinin direktoru Şaron Alroi-Prays deyib ki, uşaqlar peyvəndləmədən kənarda qalırlar, bu isə o deməkdir ki, kollektiv immunitetin yaranmasında problem olacaq. Stepenskaya qeyd edib ki, bu cür narahatlıqların heç bir elmi əsası yoxdur.

### "Uşaqlara lazım deyil, yaşlılara isə"

**Pediatr Vaqif Qarayev "Şərq"ə açıqlamasında bildirib ki, 65 yaşdan yuxarı insanlar risk qrupuna aiddirlər, bu səbəbdən də onların peyvəndlənməsi vacibdir:**

- Peyvəndləmə könüllüdür. Heç kimi zorla peyvənd etmirlər. Amma yaşı 65-dən yuxarı olanlar risk qrupuna daxildirlər. Yaşlı insanların orqanizmi zəiflədiyi üçün virusa davamlılıqları da zəif olur. Pandemiya dövründə də görürük ki, koronavirusa yoluxanlar arasında yaşlı insanlar və yanaşı xəstəlikləri olanlar çoxluq təşkil edir. Bütün dünyada vaksinasiya kampaniyası gedir. Virusdan qorunmağın 2 yolu var; ya gərək aylarla, bəlkə də illərlə evdə oturasan, evdən bayıra çıxmayasan, özünü ətraf aləmdən təcrid edəsən, ya da gərək peyvənd olunub təhlükəni atladasan. Biz həkimlər əvvəldən bunu deyirik, tövsiyə edirik ki, peyvənd olunmaq lazımdır. İnsanların peyvəndlə bağlı şübhələri var. Hardan qaynaqlanır? Sosial şəbəkələrdən, əsassız məlumatlardan, diletantların danışığından. Əhalini peyvəndlərin təhlükəsizliyinə inandırmaq lazımdır. Bunun üçün də gərək, birincisi, peyvəndlər keyfiyyətli və təhlükəsiz olsun, ikincisi, effektli olsun, üçüncüsü isə texniki şərtlərə ciddi əməl edilsin. Bu da peyvəndlərin daşınması, saxlanma şəraiti ilə bağlıdır. 70 min tibb işçisi artıq peyvənd olunub. Çünki yoluxanların əksəriyyəti tibb işçiləri oldu, koronavirus neçə dəyərli həkimi əlimizdən aldı. Tibb işçiləri də xəstələrlə çalışdıqlarına görə risk qrupuna daxildirlər. Qaldı uşaqların peyvənd olunması məsələsinə, bugünədək dünyada uşaqların yoluxması ilə bağlı təhlükəli statistika mövcud deyil. Ona görə də uşaqlar peyvənd edilmir. Mən də razı deyiləm uşaqların peyvənd olunmasıyla. Amma belə bir xəbər də var ki, uşaqlar üçün xüsusi peyvənd hazırlanır. "Uşaqlar peyvənd edilməyəcəksə, kollektiv immunitet formalaşmayacaq" fikri ilə mən də razı deyiləm. Artıq belə bir yanaşma var ki, əhalinin 60-70 faizi peyvənd olunarsa, bu, kollektiv immunitetin yaranması üçün kifayət edəcək. Azərbaycanda əhalinin sayı 10 milyondursa, bunun 2 milyonunu uşaqlara çıxsaq, qalır 7-8 milyon nəfər. Heç olmasa, 3 milyon nəfər peyvənd edilsə, o zaman rahat nəfəs ala bilərik.

**Məlahət Rzayeva**

# İnvestorların qızıl və gümüşə marağı artıb

### "Bu hal dünya bazarlarında gedən bir trenddir"



**Azərbaycanda bir il ərzində qızıl və gümüşün qiymətində artım müşahidə olunub. Qızılın bir unsiyası 17,1 faiz-456,5945 manat, gümüş isə 51,2 faiz-15,453 manat bahalaşıb.**

Bununla yanaşı platin 480,3435 manat (29,3 faiz) bahalaşıb, palladium 14,416 manat (0,4 faiz) ucuzlaşıb.

**İqtisadçı-ekspert Natiq Cəfərli qiymətlərin bahalaşmasına münasibət bildirərkən qeyd edib ki, pandemiya səbəbilə baş verən iqtisadi dalğalanmalar nəticəsində investorların qızıl və gümüşə marağı artıb:** "Bu hal dünya bazarlarında gedən bir trenddir. Pandemiyanın ilk vaxtlarından iqtisadiyyatda ciddi dalğalanmalar yaşandı. Beləliklə, qızıl və gümüşə investorların marağı artıb. Çünki istənilən böhranlı vəziyyətdə qiymətli metallar güvənli liman rolunu oynayır. Dünya iqtisadiyyatında təlatümlər yaşanırsa, bu vaxt investorların bir qismi öz vəsaitlərinin böyük bir qismini dəyərli metallarda saxlamağa çalışırlar. Bu, tarixən belə olub. Pandemiya ilə bağlı dünya bazarlarında yaşanan iqtisadi dalğalanmalar və daralmalar nəticəsində qızıl və gümüşə marağın artması qiymətlərin bahalaşmasına gətirib çıxarır".

**Aytac Ali**

# Gənclər şəhərciyi susuz qalıb

## "Azərsu" problemin binanın öz daxilindən qaynaqlandığını bildirib



"Abşeron" gənclər şəhərciyinin sakinləri suyun məhdudiyyətlə verilməsindən əziyyət çəkirlər. Bu barədə "Şərq"ə şəhərciyin sakinləri məlumat veriblər.

Ərazidə yerləşən 10 mərtəbəli binaların sakinləri iddia edirlər ki, su səhər saat 7-dən 10-a kimi, axşam da eyni saatlarda verilir. Sakinlər neçə illərdir ki, bu problemin həll olunmadığını bildirirlər.

**Mövcud durumla bağlı AVCİYA-nın Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlı Azərbaycanda kommunal xidmətlərin çox bərbad vəziyyətdə olduğunu bildirib:** "Bu hal həm suya, həm də qaz və mənzil istismar idarələrinə aiddir. Hər hansı bir xidmət müqavilə ilə olmalıdır. Məsələn, sovet dövründə mənzil istismar idarələri dövlət evlərinə xidmət etmək üçün yaranmışdı. Yəni dövlət evi tikirdi və vətəndaşa həmin evi mülkiyyət kimi yox, kirayə olaraq verirdi. Dövlət həmin evlərdə öz idarəsini yaradıb xidmət göstərirdi. İnsanlar kirayə pulu verirdi və qarşılığında mənzil istismar idarəsi onlara xidmət göstərirdi.

"Abşeron" gənclər şəhərciyindəki su probleminə gəlincə, bu binalar özəldir, yəni "Akkord" şirkəti binanı tikib və insanlar pul verib evi alıblar. Sadəcə olaraq sakinlərə hələ kupça verməyiblər. İnsanlar neçə ildir ki, orada yaşayır, amma öz əmlakları üçün sənədləri yoxdur".

*M.Zülfüqarlı qeyd edib ki, sözügedən binanın su problemi məhz evə məxsus sənədlərin sakinlərdə olmamasından qaynaqlanır:* "Hətta orada elə evlər var ki, yaşayış yoxdur. Amma vətəndaşın qapısına yazıblar ki, "İşığa filan qədər borcun var". Heç işığın çəkilməsi olmayıb, lakin işıq pulu yazıblar. Mənzil istismar idarəsi adlandırılan qurum müqavilə ilə əhaliyə xidmət etməlidir. Pulla verilən xidmətdir, sakinlər də pulu verirlər, niyə su ilə təmin olunmasınlar ki? Deməli, binada özbaşınalıq baş alıb gedir".

**"Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı ilə də əlaqə saxladıq.** Qurum sözçüsü açıqlamasında bildirdi ki, "Abşeron" gənclər şəhərciyinin yaxınlığında olan bütün binalarda su daimidir. Şəhərcikdə olan bu problem binanın özü ilə bağlıdır: "Şəhərciyin öz su anbarları var. Bu problem "Azərsu"nun səlahiyyətindən çıxıb. Çünki şəhərcikdə su problemi ilə maraqlanmışıq. Problem bizdən qaynaqlanmır. Şəhərciklə üzbəüz olan bina, eyni zamanda yaxınlıqdakı digər binalarda hər saat su gəlir. Həmin binanın tikintisi ilə "Akkord" şirkəti məşğul olur. Ona görə də problemin nədən qaynaqlandığını bu qurumdan soruşmaq lazımdır".

"Akkord" Sənaye Tikinti İnvestisiya Korporasiyası və kompleksin komendantlığı ilə əlaqə saxlamağa çalışsaq da, telefonlarımıza cavab verən olmadı. Qarşı tərəflərin mövqeyini dərc etməyə hazırıq.

**Yeganə Bayramova**

## Nizami-880

# Hərflərin dili, sözün çaları



## Oxuduqca şairin dühası qarşısında bir daha baş əyirsən

Hərtərəfli və zəngin biliyə, böyük istedada malik və bütün ömrü boyu elmləri mütaliə edən dahi şairimiz Nizami Gəncəvinin əsərlərində oxucunu heyran qoyan cəhətlərdən biri də onun hərflərə rəmzi məna verməsidir. Şair ərəb əlifbasındakı müxtəlif hərflərin adlarından yeri gəldikcə məharətlə istifadə etməklə çox dolğun və güclü mənaya malik olan beytlər yaratmışdır.

Onu qeyd etmək lazımdır ki, klassik ədəbiyyatda istər hərflər və istərsə də rəqəmlər vasitəsilə poetik fikir söyləmək şairdən dərin bilik və yüksək istedad tələb edirdi və bu ağır vəzifənin öhdəsindən az şairlər gələ bilirdi. Bu çətin sınaqdan şərəflə çıxanlardan biri də N.Gəncəvi olub. Şairin bu qəbildən olan poetik nümunələrindən bir neçəsini nəzərdən keçirək.

"Sirlər xəzinəsi" poemasında "Sonuncu peyğəmbərin şəninə" parçası aşağıdakı beytlərlə başlayır:

**Varlığın lövhəsinə ilk söz yazanda qələm,**
**- Əhmədin "əlif"ini yazıbdır onda qələm.**

**"Əlif" "hey"i mülkünə hakim edəndən bəri,**
**"Dal" onun boyunbağı, "mim" də ki, bir kəməri.**

**Bu kəmər, boyunbağı edib camal sahibi,**
**Səadət dünyasında olub kamal sahibi.**

Şair burda demək istəyir ki, lövhi-məhfuzda ilk söz "əlif"lə başlanır (lövhi-məhfuz - islam dininə görə, göyün ən yüksək qatında üzərində Allahın bütün göstərişləri yazılmış lövhə. Allah-təala Adəmi yaratdıqdan sonra lövhi-məhfuzda elmi ona təlim etmişdir. Bax: "Qurani-Kərim", "Bəqərə" surəsi, 31-ci ayə). Peyğəmbərin adı Əhmədin də (Əhməd və Məhəmməd eyni kökdən - "həmədə"olduğu üçün peyğəmbər bu adla məşhurdur) bu hərflə başlanmasını şair onun yüksək şərəfə və hörmətə layiq olması kimi qiymətləndirir. Nizami ikinci beytdə Əhməd (Məhəmməd peyğəmbər) adındakı hərflərin necə birləşməsini də çox maraqlı şəkildə izah edir. Bildiyimiz kimi, Əhməd (Məhəmməd) dörd hərfin (əlif, hey, mim və dal) birləşməsindən əmələ gəlir. "Əlif" ikişəkilli hərf olduğu üçün özündən sonra gələn "hey" ilə birləşmir, ona görə də sözün sonrakı hissəsi "hey" hərfi ilə başlanır, yəni "əlif" hakimliyi "hey"ə verir. Boyunbağıya oxşayan "dal" hərfi ilə "hey"i bir-birinə bağlayan isə kəmərə bənzəyən ortadakı "mim"dir. Eyni zamanda şairin boyunbağıya oxşayan "dal" hərfi ilə Peyğəmbərin saçına işarə etdiyini də düşünmək olar (rəvayətə görə, Peyğəmbərin uzun və yaraşıqlı saçı olmuşdur. Saç arxaya tökülərkən "dal" hərfinə oxsayır). Beləliklə, şair Məhəmməd peyğəmbərin zahirən yaraşıqlı olması ilə bərabər, dünyaya ağıl və kamal bəxş etdiyini göstərir.

*Yenə həmin parçadan iki beytə diqqət edin:*

**Dünyaya dərs almamış natiq kimi gəlibdir,**
**Dərsi - Məsihin "mim"i, Adəmdəki "əlif"dir.**
**"Ənbiya" kəlməsinin həm əvvəli, həm sonu,**
**Əhdinə, vəfasına "əlif" tək düz bil onu.**

Şair burada Məhəmməd peyğəmbərin anadangəlmə alim olmasına işarə etmiş *(Əhməd və ümmi - ərəbcə anadangəlmə alim - sözlərindəki hərf uyğunluğu), eyni zamanda, Adəm və Məsih (İsa peyğəmbər)* sözlərində də həmin hərflərin olduğunu göstərmişdir.

Bununla adların hərflərinin alleqorik şərhini verərək isbat etmək istəyir ki, Məhəmməd həm Adəm peyğəmbərdən, həm də İsa peyğəmbərdən üstündür. İkinci beytdə isə "ənbiya" *(yəni peyğəmbərlər)* kəlməsinin də Əhməd (Məhəmməd peyğəmbər) kəlməsinin əvvəlində "əlif"lə başlanın "əlif"lə bitməsi şair Məhəmməd peyğəmbərin bütün peyğəmbərlərdən üstün olması kimi izah edir, Onun öz "əhdinə və vəfasına" şaquli düz xəttə bənzəyən "əlif" kimi düz olduğunu göstərir.

*Peomanın "Haqsızlıq və doğruluq" hissəsində Nizami yazır:*

**"Əlif" kimi öyünmə, düzdür deyə qamətin,**
**Lovğalıqdan əyilər bu fələyə qamətin.**

**"Əlif" olsan, qanadsız quşa dönüb uçmazsan,**
**"Bey" kimi əyilməsən, bu torpağı qucmazsan.**

**"Əlif" qəddin olsa da hər məclisə yaraşıq,**
**Yaraşarmı "əlif" tək sən müflisə yaraşıq?**

Bu beytlərin mənası belədir: Ey "əlif" hərfi kimi öz qamətinə aşiq olan insan, sən özünəpərəstiş nəticəsində hədsiz dərəcədə təkəbbürlü olmusan. Bu quru lovğalığınla və yersiz təkəbbürünlə sən qanadsız quşa bənzəyirsən, heç vaxt uça bilməzsən. Həqiqət xəzinəsindən bəhrəsiz qaldığın üçün "əlif" kimi şax qamətini aşağı əyməyə səndə təvazökarlıq çatmır. Həmin xəzinədən bəhrələnmək üçün gərək "bey" hərfi kimi başını aşağı salıb təvazökar olasan. "Əlif" kimi düz, yaraşıqlı qamətinlə məclislərə yaraşıq olsan belə, unutma ki, sən həm də "əlif" kimi müflissən, necə ki, "əlif"in bir düz şaquli xətdən başqa heç bir çıxıntısı və əyrisi yoxdur.

Nizami "Xosrov və Şirin" poemasında da mənası hərflərlə ifadə olunmuş beytlər işlətmişdir.

*Poemanın "Atabəy Əbu Cəfər Məhəmməd Eldəgizin tərifi" hissəsində oxuyuruq:*

**Bu adla fəxr edir hər iki dünya,**
**İki "mim" hərfindən taxmışdır sırğa.**
**"Aləm"də bir "mim" var, onda ikisi,**
**Bölmüşdür "aləmi" paxıllıq hissi.**
**Qələm türklərinə salaraq nəzər,**
**Bir "mim" tac bağışlar, bir "mim" dəkəmər.**

Nizami bu beytlərdə Atabəy Məhəmmədin adındakı iki "mim" hərfinə işarə edib onu tərifləyir. Şair ərəb əlifbası ilə "Məhəmməd" sözündəki "mim"lərin başda və ortada yazılmasına işarə edərək, onun şairlərə tac və kəmər bağışladığının nəzərə çarpdırır.

*Bu tipli beytlərə şairin "Yeddi gözəl" poemasında da rast gəlmək olar. Məsələn, poemanın "Sözün tərifi və hikmət haqqında" hissəsində bu beytə diqqət edək:*

**Zər birləşməz iki hərfdir gerçək,**
**Birləşsinlər deyə nədir bu əmək?**

Beytin mənası belədir ki, ərəb əlifbasında "zər" (qızıl) sözü bir-birinə birləşməyən ikişəkilli hərflə "ze" və "re" ilə yazılır. Yəni mümkün olmayan bir işdən yapışmaq "zər" sözündən bu iki hərfi birləşdirməyə çalışmaq kimi faydasızdır.

*Poemanın başqa bir yerində Nizami hər bir işin və sözün yerini bilməyi nəsihət edərək yazır:*

**"Sin"i "yey"siz əgər qoysan baş-ayaq,**
**Çevrilər mis olar o gümüş ancaq.**

Yəni "sim" (gümüş) sözündəki "yey"



hərfini atıb samitlərin yerini dəyişdirəndə "mis" əmələ gəldiyini kimi, yerində deyilməyən söz və yersiz edilən hərəkət də insana peşmançılıqdan başqa heç nə verməz.

*Poemanın sonunda şair:*

**Qoy bütün dünyada çəkilsin adım,**
**İki hərflə başa gələr muradım.**

- deməklə ərəb əlifbasındakı "kaf" və "nun" hərflərini nəzərdə tutur. Bu iki hərfin birləşməsi "kun" (ol) sözünü əmələ gətirir. Yəni şair kitabını "Ol", "Əbədi var ol" duası ilə bitirir.

*Nizami özünüz son poeması olan "İsgəndərnamə"də də bu ənənəni davam etdirmişdir. Poemanın bir yerində oxuyuruq:*

**İsgəndər sözünü yazanda katib,**
**Yalnız beş hərflə işarə edib,**

**Beş hərfə müvafiq etdin beş səfər**
**Suları, dağları keçdiyin yetər.**

Beş hərf dedikdə şair İsgəndər sözündəki beş samiti *(sin, kaf, nun, dal, re)* nəzərdə tutur. Beş səfər isə İsgəndərin Misir, İran, Hindistan, Rus və Çin səfərlərinə işarədir.

Ümumiyyətlə, bu tipli beytləri Nizaminin istər poemalarında, istərsə də yaradıcılığının başqa nümunələrində istənilən qədər tapmaq mümkündür. Onları oxuyub mənalarına vardıqca Nizami dühası qarşısında bir daha boyun əyməli olursan.

**Elşad NƏSİROV,**
**Masallı rayonu, Qüdrət Babayev adına Mahmudavar kənd ümumi orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi.**

## Dərslər başlayır, tələbələr ev axtarırlar

### Kirayə mənzil bazarında qiymət artımı müşahidə olunur



**Fevralın 15-dən etibarən ali təhsil müəssisələrində tədris qismən bərpa olunur. Belə ki, rayonlarda yaşayan tələbələr şəhərə üz tutduqları zaman kirayə mənzillə bağlı problemlə qarşılaşacaqlar.**

Normal şəraitdə tələbələr yeni tədris ili başlamazdan əvvəl avqust ayında kirayə mənzil tuturdu. Lakin pandemiyanın yaratdığı duruma görə tələbələr 2020-ci ilin mart ayından başlayaraq tədricən öz evlərinə qayıtmağa başladılar.

Tədrisin qismən bərpa olunması ilə kirayə mənzillərə ehtiyac artır. Lakin qiymətlər tələbələrin cibinə uyğun deyil.

**Vəziyyəti dəyərləndirən daşınmaz əmlak bazarı üzrə ekspert Nüsrət İbrahimov "Şərq"ə bildirib ki, kirayə mənzil bazarında yanvar ayının nəticələrinə görə cüzi də olsa, artım var.** Lakin bu artım tələbələrin qayıdışıyla əlaqəli deyil, struktur dəyişikliyi ilə bağlıdır: "Son vaxtlar ucuz kirayə mənzillər bazara daxil olmur, qiyməti yüksək olanlar üstünlük təşkil edir. Ona görə də bu sahədə 2.45 faiz artım müşahidə edilir.

Ötən illə müqayisədə pandemiyanın nəticəsində 14.41 faiz azalma var.

Ali təhsil müəssisələrinin qismən bərpası mənzil bazarında müəyyən təzyiq yarada bilər. Onların bazara qayıtması qiymətlərin dəyişməsinə təkan verəcək.

Lakin tələbələrin hansı aktivliklə və nə qədər müddətə qayıdacaqları bəlli deyil. Ehtimal etmək olar ki, tələbələrin kirayə mənzil bazarına üz tutması qiymət artımına təsir göstərəcək".

**Aygün Tahirqızı**

## Rizvan Cəbiyev əməliyyat olunub

### Anar Nağılbazın valideynlərinin səhhətlərində problem var



**Mərhum reper Anar Nağılbazın atası, sabiq millət vəkili Rizvan Cəbiyevin səhhətində problemlər var idi.**

O, bu barədə ötən il "Şərq"ə açıqlamasında danışıb: "Çox ciddi xəstəliklərim var. Koronavirus infeksiyası da evdən çıxmağa qoymur. Sanki həbsdəyik, könüllü həbsxanadır. Bilirik ki, evdə qalmağın faydası çoxdur. İnanın, ancaq evdəyəm. Bu da bir az ağırlıq yaradır. Əvvəl parka gedib-gəlirdim. Həm ayaqlarım açılırdı, həm də ürəyin fəaliyyəti nizama düşürdü. İndi onları edə bilmirəm. Çox ağırlaşmışam, bədənim tamamilə qüvvəsini itirib".

**Yenidən Rizvan müəllimlə maraqlanmaq üçün özü ilə əlaqə saxladıq. Telefona onun həyat yoldaşı Şərqiyyə xanım cavab verdi. O, əvvəlcə mərhum oğlunun ailəsindən söz açdı:** "Yaxşıdılar, uşaqlar anaları ilə birgə yaşayır. Kirayələrini və digər xərclərini biz qarşılayırıq. Rizvan müəllim də, mən də yaşlanmışam, səhhətimizdə problemlər yaranır. O da bu yaxınlarda əməliyyat olunub".

**Samirə Ərəbova**

# Cərimələr sürücülərin yuxusuna haram qatıb



## "İnsanlar paytaxtda avtomobillərini çox zaman saxlamağa yer tapa bilmirlər"

Ötən il qayda pozan sürücülərə yazılan cərimələrin məbləği açıqlanıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2020-ci ildə yol hərəkəti qaydaları əleyhinə aşkarlanmış inzibati xətaların sayı 3631,1 min olub.

Xətaların 39,9 faizi yolda müəyyən edilmiş hərəkət sürəti həddinin aşılması, 21,7 faizi dayanma və ya durma qaydalarının pozulması, 9,2 faizi yol nişanlarının və ya yolların hərəkət hissəsinin işarələrinin tələblərinə riayət edilməməsi, 8,4 faizi işıqforun və ya nizamlayıcının qadağanedici işarəsi verilərkən hərəkətin davam etdirilməsi, 6,5 faizi təhlükəsizlik kəmərini bağlamadan nəqliyyat vasitəsinin idarə olunması, 3,6 faizi epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması, qalan hissəsi isə digər səbəblər üzrə aşkarlanıb. Qaydaların pozulmasına görə 118,2 milyon manat məbləğində cərimələr tətbiq edilib.

**Nəqliyyat eksperti İlqar Hüseynli "Şərq"ə açıqlamasında qeyd edib ki, cərimə məbləğinin artmasının bir neçə subyektiv faktorlara söykənən səbəbləri var.** Ekspertin sözlərinə görə, bu faktorlardan biri Azərbaycanın daxili, xüsusən rayonları birləşdirən magistral və beynəlxalq əhəmiyyətli yollarında tez-tez sürət həddinin məhdudlaşdırıcı işarələrinin dəyişdirilməsidir: "Bu halı biz daha çox Bakı-Ələt yolunda müşahidə edirik. Məsələn, əgər dünənə qədər maksimal 110 sürət həddinə icazə verilirdisə, bir də görürsən ki, gecənin bir vaxtında onu dəyişdilər və elədilər 90. Bu zaman radarlara düşən sürücülərin sayı birdən-birə kifayət qədər artmış olur. Hesab edirəm ki, belə hallarda mütəmadi olaraq həmin yollarda işləyən sürücülər üçün bir məlumatlandırma aparılmalıdır".

**Ekspert qeyd edib ki, ikinci səbəb isə texniki baxışların elektronlaşdırılması ilə bağlıdır:** "Bilirsiniz ki, istismar müddəti 10 il keçdikdən sonra nəqliyyat vasitələri hər il ildə bir dəfə olmaq şərtilə texniki baxışdan keçirilməlidir. Yəni həm yükdaşıyan, həm də fərdi minik avtomobillərinə mütləq şəkildə texniki baxış olmalıdır. Burada proses necə gedir? Əvvəllər texniki baxış keçirən zaman sürücülərə "birka" verilirdi. O "birka"lar da ön şüşəyə vurulurdu. Nəticədə sürücünün növbəti texniki baxışın nə vaxt olacağı ilə bağlı gündəlik gözünün qarşısında informasiyası var idi. Amma indi bu proses elektronlaşdırılıb. Artıq bazada elektronlaşma sistemdir. Yəni avtomatik texniki baxış müddəti ötən kimi elektron olaraq birbaşa sürücülərə cərimələr yazılır. Sürücü xəbər tutana kimi, artıq onun 50-60 manat texniki baxışa görə cəriməsi olmuş olur. Yəni artıq cərimələr də rəqəmsallaşdırılıb".

**İ.Hüseynli əlavə edib ki, eyni prosesi həm də inzibati nəqliyyat vasitəsinin icbari sığortalanmasına da şamil etmək olar:** "Azərbaycanda bir ildən bir nəqliyyat vasitələrinin icbari sığortalanması prosesi baş verir. Nəqliyyat vasitələrinin sığortalanması hesab edirəm ki, vaxt baxımından çox tezdir. Bir faktı qeyd edim ki, son vaxtlar bizdə hər şeyin - suyun, qazın qiymətini qaldırırlar və deyirlər ki, Avropadan ucuzdur. Amma digər amilləri nəzərə almırlar. Eyni zamanda texniki baxış və icbari sığorta ilə bağlı məsələlərə də. Məsələn, bəzi ailələr kiçik bir maşın üçün 65 manat ödəyirlər. Yəni məbləğ o motorun gücünə görə dəyişir. Kiçik maşın sürən və kasıb ailələr bunu maddi cəhətdən çatdıra bilmirlər. Başqa bir faktor isə dayanma-durma ilə bağlıdır. Bildiyimiz kimi, həm BNA, həm də DYP birgə reydlər aparır. Onların hər ikisinə cərimə yazmaq səlahiyyəti verilib. İnsanlar paytaxtda avtomobillərini çox zaman saxlamağa yer tapa bilmirlər. Bəzi yerlərdə məcburiyyətdən dayanmalı olurlar ki, nəticədə onlara cərimə tətbiq olunur. Bütün bu faktorlar da hər il cərimələrin məbləğini artırır".

**Aynurə Pənahqızı**



# Bəstəkar Murad Arif televiziyalara üsyan etdi

## Bisavad və tərbiyəsiz adamlardan reytinq toplayırlar"

**Müğənni, bəstəkar Murad Arif telekanallarda yayımlananın verilişlərə irad bildirib.**

**"Şərq" qəzeti xəbər verir ki, sənətçi Milli Televiziya və Radio Şurasına səslənərək, bu sözləri yazıb:** "Ümumölkə yayımında olan kanallarımızda yenə şivən verilişlər, bayağı söhbətlər, beldən aşağı araşdırmalar, keyfiyyətsiz adamların lüzumsuz şəxsi həyat detalları, qeybət, "İnstaqrama girən qız almaram"lar, "Ata uşağına şillə vurar da"lar, "Razrezli qızla oxumaram"lar, "Nənələrimiz 12 yaşında ərə gedib"lər çoxalıb. Azərbaycan belə televiziyaya layiq deyil. Əhalinin psixoloji durumu və intellekt, zövq meyarları elastikdir.

"Mən özələm, işçim dolanmalıdır" deyən, kanallara bir təpki göstərin. Kanallara maliyyə dəstəyi və onu keyfiyyətə xərcləyən adamlar təyin edin. Bu gün bir çox verilişlər "Tik-tok" və "İnstagram" üçün işləyirlər. Bisavad və tərbiyəsiz adamlardan reytinq toplayırlar.

Bu, anormaldır. Madam ki, köhnə vərdişə " tövbə" yoxdur, o zaman "Dəmir yumruq" tətbiq olunsun. Xahiş edirik".

**Samirə Ərəbova**

# İşəgötürən və işçiyə nəzarət güclənəcək

## Elektron sistem bir çox problemləri həll edəcək

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən yaxın vaxtlarda Əmək münasibətləri və məşğulluq altsisteminin (ƏMAS) tətbiqi nəzərdə tutulur. Nazirlikdən verilən məlumata görə, ƏMAS bütün işəgötürənlər və işçilər, habelə dövlət qurumları üçün vahid əmək münasibətləri platforması rolu oynayacaq.

Yeni sistem əmək müqaviləsinin elektron formada bağlanılması, rəqəmsal kadr uçotu sisteminin yaradılması, əməyin təşkili və mühafizəsində beynəlxalq standartların tətbiqi, əməyin ödənilməsində qanunvericiliyin tələblərinin gözlənilməsi və bu sahədə dövlət siyasətinin həyata keçirilməsinin dəstəklənməsinə xidmət edəcək. ƏMAS-ın tətbiqi ilə əmək və məşğulluq sahəsində kağız üzərində aparılan bütün əməliyyat və yazışmaların, işçilərlə əmək münasibətlərinə dair məlumatların, stat cədvəllərinin və s. elektronlaşması təmin olunacaq. Altsistemin tərkibində risk əsaslı yoxlama, elektron audit və s. ilə bağlı modullar da yaradılacaq. Vakansiya bankının daha təkmil formalaşdırılması və xüsusi alqoritmlərlə işəgötürən üçün işçi, işçi üçün isə işəgötürən seçimi təşkil ediləcəkdir. Nəticə etibarilə ƏMAS işəgötürənlər (xüsusilə də kiçik və orta sahibkarlar) üçün əmək münasibətlərini daha rahat şəkildə tənzimlənməsində mühüm önəm kəsb edəcək. Bəs görəsən, bunun hansı üstünlükləri olacaq?



## "Elektronlaşma bir çox yükləri azaldacaq və statistik hesabatların, vergi hesabatlarının aparılmasının şəffaflığını təmin edəcək"

**İqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında bildirib ki, elektron sistem nəticəsində işəgötürən və işçiyə nəzarət güclənəcək.** R.Qarayev əlavə edib ki, bu yaxınlarda istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığortanın elektron əmək müqaviləsində əks olunması bir çox məsələləri ortaya qoydu: "Bəzi işəgötürənlər sığortadan yayınmaq üçün, sığorta şirkətləri ilə yazılı müqavilə bağlamağa üstünlük verirlər. Təbii ki, bunu müəyyən tanışlıq və pul müqabilində edirlər. Ümid edirlər ki, yazılı müqavilə ilə işləri yekunlaşacaq. Amma güman etmirlər ki, sistemdə bu qeyd olunmayıbsa, məsuliyyətdən yan qaça bilməyəcəklər. Sığorta şirkətləri müqavilə bağlayanda kağız üzərində bağlanan müqaviləni sistemə daxil etmirlər. Bu yaxınlarda vətəndaşlardan biri mənə müraciət etdi. Qeyd etdi ki, sığorta şirkəti ilə yazılı müqavilə bağlayıb. Amma yazılı müqavilədə qeyd olunan bütün işçilərinin sistemə vurulmadığından şübhələnib. Çünki elektron hökumət portalına daxil olduqda işçinin bir neçəsinin Fərdi İdendifikasiya Nömrəsi hələ də sistemdən asılı olaraq qalıb. Qeyd olunan məqamlar onu göstərir ki, sistemin elektronlaşmağı bir çox gizli məqamların aşkar olunmasına təkan verəcək".

**Ekspert qeyd edib ki, bundan əlavə əmək kitabçalarının elektronlaşmasının böyük üstünlükləri var:** "Bir çox hallarda işəgötürən əmək kitabçalarına xüsusi formada diqqət etmirdi. Nəticədə əmək kitabçası ya işçiyə açılmırdı və ya orada xüsusi qeydlər aparılmırdı. Digər məqam isə kitabçaların işəgötürən tərəfindən girov kimi saxlanması, onları işçiyə təhvil verməməsi və ya işçinin əmək kitabçasının vaxtında işəgötürəndən götürməməsi bir çox məhkəmə mübahisələrinə belə gedib çıxırdı. Amma elektron sistem bir çox məsələləri həll edəcək. Bir məqamı da qeyd edim ki, bu sistemin mükəmməlləşməsi üçün müəyyən vaxt lazımdır. Çünki hazırda görülən işlərdə bəzi çatışmazlıqlar var. İşçinin işə qəbulu, başqa işə keçirilməsində sistemdə çatışmazlıqlar mövcuddur. Bu da yəqin ki, zamanla həll olunacaq. Ümumilikdə, hesab edirəm ki, elektronlaşma bir çox yükləri azaldacaq və statistik hesabatların, vergi hesabatlarının aparılmasının şəffaflığını təmin edəcək".

**Aynurə Pənahqızı**

# “Everest”də 50 ton zibil var

## İndi o tullantıları dəyərli sənət əsərinə çevirirlər

(Əvvəli səh: 16-da)

Elə bir dağ fikirləşin ki, ölü insanlar sizə bələdçilik edir. Əlbəttə, bu dağa çıxmağın öz riskləri var və bəzi alpinistlər bu zirvəni fəth edə bilmədən həlak olurlar. Cansız bədənləri isə havanın kəskin olmasına görə çox az deformasiyaya uğrayır. Onlar digər alpinistlərin bələdçisi olur. Tibet dilində "Kainat tanrıçası" mənasını verən dünyanın ən hündür və ən çirkli dağı sayılan "Everest" öz ətəklərində alpinistlərin cansız bədənini, zirvəsində isə 50 ton zibil daşıyır.

Dəniz səviyyəsindən 30 min yüksəklikdə yerləşən zibilliyə qalxmaq üçün illərdir böyük miqdarda pul xərcləyən, lakin geridə buraxdıqları çirkin izlərdən narahat olmayan alpinistlər sayəsində ”Everest” dağı dünyanın ən yüksək zibilliyinə çevrilib. Çadırlar, alpinist alətləri, boş qaz balonları 8848 metrlik zirvə yolunda alpinistləri salamlayır. Qlobal istiləşmə səbəbi ilə əriməkdə olan buzlaqlar, dağa qalxmanın ilk dövrlərindən 65 il əvvəl qalan zibilləri ortaya çıxartmağa başlayıb. Zibil problemi üçün illər ərzində müxtəlif tədbirlər görülüb. Beş il əvvəl, Nepal hökuməti zirvəyə çatmaq üçün müraciət edən hər komandadan dörd min dollar zibil pulu götürməyə başladı. Hər alpinist ən azı səkkiz kiloqram zibil gətirsə, pulu geri alacaqdı. Bu qaydanın ardından, Nepaldakı alpinistlər 2017-ci ildə demək olar ki, 25 ton zibil və 15 ton insan tullantıları atdılar. Lakin yenə də bu tədbirlər hər il yaranan tullantıların yalnız bir hissəsidir.



Bəs bu zibilləri sənət əsərinə çevirmək olmazmı? Bu fikrə əsaslanaraq ”Next Center”in qurucu tərəfdaşı Tommi Gustafson yerli və xarici sənətkarlarla əməkdaşlıq edərək ”Everest Muzeyi” ideyasını ortaya qoydu. Sözün əsl mənasında onların fikri ”zibildən-sənətə” muzeyi yaratmaqdır. Layihə rəhbəri Tommi Gustafson müsahibəsində belə qeyd edib: ”Qatı tullantıları necə dəyərli sənət əsərlərinə çevirə biləcəyimizi göstərmək istədik” . Gustafson layihənin əlavə gəlir olduğunu, həm yerli, həm də xarici sənətçilər üçün açıq olduğunu bildirib. Muzey Everestin əsas düşərgəsinə gedən yolda Syangbochedə açılacaq. Bu muzey sayəsində dağdakı tonlarla zibil sənətə çevriləcək. Həmçinin bu muzey sayəsində Everestə dırmaşmaq üçün başqa bir səbəb olacaq. Sərgilənəcək əsərlərin suvenir kimi turistlərə satılması nəzərdə tutulur. Bundan əldə olunan gəlir bölgənin qoruma işlərinə xərclənəcəkdir. Muzeyin baharda az sayda ziyarətçiyə açılması gözlənilir. Məhdudiyyətlər pandemiya ilə əlaqədardır.

**Gülcahan Məmmədova**

# Azercell müharibədə iştirak edən tələbələrə təqaüd ayırdı




10 ildən artıq müddətdir ki, "Azercell Telekom" MMC tərəfindən reallaşdırılan "Tələbə Təqaüdü" proqramı çərçivəsində bir çox sahələr, həmçinin informasiya texnologiyaları üzrə ali təhsil alan və yüksək göstəriciləri olan tələbələrə təqaüd ayrılır.

Bu il isə əvvəlki illərdən fərqli olaraq, 44 gün davam etmiş ”Vətən Müharibəsi” zamanı təhsilini yarımçıq qoyaraq, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmiş tələbələrin həmin proqram çərçivəsində dəstəklənməsi və nəticədə, Azercell tərəfindən Bakı ilə yanaşı, həm də bölgələrdəki müxtəlif ali təhsil ocaqlarının 23 tələbəsinə təqaüd verilməsi qərara alınıb. Tələbələrin siyahısı Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təqdim olunub.

Təqaüd Proqramına seçilən tələbələr əsasən İT və Şəbəkə yönümlü ixtisaslar üzrə müxtəlif kurslarda təhsil alırlar. Təqaüdçülər sırasında bakalavrlarla yanaşı, magistratura pilləsi üzrə təhsil alan gənclər də var. Tələbələrə təhsil müddətinin sonunadək hər təhsil ayı üçün 200 manat məbləğində təqaüd veriləcək. Eyni zamanda hədiyyələr, Azercell Fakturasız xətt abunəçisi olan Təqaüd Proqramı tələbələrinə GencOl 9 tarifinə 30% endirim və dünyaca məşhur Busuu proqramına 6 aylıq abunəlik təqdim olunacaq.

Bəhs edilən layihə çərçivəsində 10.02.2021-ci il tarixində ”Azercell Telekom” MMC-nin prezidenti Vahid Mürsəliyev və departament direktorlarının iştirakı ilə tələbələrlə onlayn görüş təşkil olunub. Həmin tədbirdə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsində sektor müdiri Yaşar Ömərov da iştirak edib.

”Azercell Telekom” MMC-nin prezidenti əsgər tələbələrin timsalında Vətən müharibəsində iştirak edən bütün hərbçi və əsgərlərə zəfər sevincini yaşatdıqları üçün dərin təşəkkürünü bildirib, onları ”Azercell Təqaüdçüsü” adını qazanmaqları münasibətilə təbrik edib, gələcək fəaliyyətlərində onlara daha da böyük zirvələri fəth etməyi arzu edib: ”Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli rəhbərliyi altında məhz sizin kimi gənclərimiz bütün dünyaya ordumuzun gücünü, qüdrətini, xalqımızın qələbə əzmini nümayiş etdirməyi bacardı. Sizin vətənimizin azadlığı və bütövlüyü uğrunda sərgilədiyiniz misilsiz rəşadət və qəhrəmanlıq gələcək nəsillərə nümunə oldu. İnanıram ki, cəbhədə vətəndaş borcunuzu layiqincə yerinə yetirdiyiniz kimi, elmi potensialınızı daha da gücləndirib, gələcəkdə İKT sahəsində ölkəmizə öz peşəkarlığı ilə xidmət edəcək mütəxəssis olacaqsınız, ayırdığımız təqaüd sizə də dəstək olacaq”. Şirkətin prezidenti bu layihədə göstərdiyi dəstəyə görə Təhsil Nazirliyinə də təşəkkürünü bildirib.

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsində sektor müdiri Yaşar Ömərov də öz növbəsində Müzəffər Ordunun mübariz əsgərlərinə ən xoş arzularını çatdırıb, Azercell-in həyata keçirdiyi ”Tələbə Təqaüdü” proqramını yüksək qiymətləndirib, bu təşəbbüsün tələbələrə maddi dəstəklə yanaşı, həm də mənəvi dəstəyin təzahürü olduğunu bildirib, şirkətin ölkənin ali ocaqları ilə olan sıx əməkdaşlığının davam etdiriləcəyinə və gücləndiriləcəyinə inamını ifadə edib.

*Qeyd edək ki, Azercell-in ”Tələbə Təqaüdü” proqramı 2009-cu ildən etibarən icra olunur. Bu müddət ərzində, ”Tələbə Təqaüdü 2021” proqramının iştirakçılarının sayı daxil olmaqla Azərbaycanın müxtəlif universitetlərində təhsil alan 235 tələbə ”Azercell” şirkətinin təqaüdçüsü seçilib. Proqramın məqsədi müvəffəqiyyətlə təhsil alan və fərqlənməyi bacaran tələbələrə xüsusi qayğı nümayiş etdirmək, yüksək potensiala malik gənclərin peşəkar kimi formalaşmasına dəstək olmaqdır. Proqrama seçilən tələbələr təqaüd almaqla yanaşı, həm də telekommunikasiya sahəsi üzrə biliklərini artırmaqla gələcək karyeraları üçün əvəzedilməz təcrübə qazanıblar. Təqaüdçülər şirkətin korporativ tədbirlərində və sosial fəaliyyətlərində, müxtəlif təlimlərdə iştirak etməklə təcrübə keçmək şansını əldə ediblər. Onların mühüm bir hissəsi Azercell-də iş təklifi alaraq uğurlu karyera qurmağa müvəffəq olub.*

# “Mexanizm təkmilləşdirilməlidir"

## “Bəlkə də, AQTA-nın ləğvi və ya başqa quruma birləşdirilməsi barədə düşünmək olar”

**Vətəndaşların hüquqlarını pozan məmurların məsuliyyətə cəlb olunmaları istiqamətində prokurorluq orqanları məqsədyönlü tədbirləri davam etdirir.**

Bu günlərdə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Bərdə regional bölməsinin rəisi vəzifəsində işləmiş Həsənov Rauf Sadiq oğlu qanunsuz əməlləri ilə əlaqədar müvafiq qaydada məsuliyyətə cəlb olunub. Aparılan araşdırmalar nəticəsində onun pendir istehsalı ilə məşğul yerli sakindən külli miqdarda rüşvət aldığı üzə çıxıb. Əslində, xüsusilə son vaxtlar adıçəkilən qurumla bağlı narazılıqlar artmaqdadır. Vaxtı keçmiş malların satılması, ərzaqların keyfiyyətsizliyi və s. kimi faktlarla bağlı şikayətlərin sayı-hesabı yoxdur. **İqtisadçı-ekspert Natiq Cəfərli bu barədə ”Şərq”ə danışıb. Onun sözlərinə görə, bu, zəruri addım idi:** ”AQTA-nın uğursuz fəaliyyəti, o cümlədən regionlarda yararsız ətlərin satılmasına dair ciddi faktlar var idi. İndi adıçəkilən şəxsin həbs edilməsi bu narazılıqların yuxarı ünvanlara çatdığını göstərir. Əlbəttə, ərzaq məhsullarına ən ciddi nəzarətçi məhz istehsalçılardır. Elə sistem yaradılmalıdır ki, şikayətlərə operativ reaksiya verilsin. Bunun üçün isə sadəcə vəzifə sahiblərinin məsuliyyətə cəlb edilməsi kifayət deyil. Bəlkə də AQTA-nın ləğvi və ya başqa quruma birləşdirilməsi barədə düşünmək olar. Bütün hallarda mexanizm təkmilləşdirilməlidir”.

**Kənan**

# Azərbaycanda ilk dəfə: dənizdə mobil internet!




**Bakcell şirkəti Azərbaycanda ilk dəfə olaraq gəmilərdə və neft platformalarında mobil internet təqdim edib. Bundan sonra şirkətin korporativ abunəçiləri mobil internetdən təkcə quruda yox, dənizdə də istifadə edə biləcəklər.**

Ölkədə fəaliyyət göstərən ən iri neft şirkətlərindən biri ilə dənizdə mobil internet xidmətlərinin göstərilməsinə dair yeni imzalanmış müqaviləyə əsasən, ilkin mərhələdə ”Bakcell”in mobil internet xidməti 4 dəniz gəmisi və 1 neft platformasında istifadəyə verilib. ”Biz çalışırıq ki, abunəçilərimiz Azərbaycanın ən üstün mobil şəbəkəsi ilə yanaşı ən keyfiyyətli müştəri təcrübəsindən yararlana bilsinlər. Bu layihə sayəsində gəmidə və neft platformalarında çalışan və dənizdə uzun müddət vaxt keçirən insanlar öz ailə üzvləri və yaxınları ilə daim ünsiyyətdə qalacaqlar. Korporativ və fərdi abunəçilərimizi bazarda ən üstün müştəri təcrübəsi ilə təmin etmək üçün Bakcell öz şəbəkəsini və xidmət keyfiyyətini təkmilləşdirməyə davam edəcək. Məqsədimiz xidmətlərimizdən istifadə edən hər kəsin mobil telekommunikasiya xidmətlərinə dair ehtiyac və tələblərinin tam şəkildə ödəməkdir”, deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib. Dənizdə mobil internet xidmətinin göstərilməsi Azərbaycan üçün bir yenilikdir. Bu yenilik sayəsində gəmi və neft platformalarının personalı saniyədə 10 meqabitə qədər sürəti olan limitsiz və yüksək keyfiyyətli mobil internetdən yararlanırlar.

*Qeyd edək ki, oxşar layihələr indiyə kimi Meksika, Rusiya və Kanada daxil olmaqla çox az ölkədə həyata keçirilib.*

*Dünyaca məşhur OOKLA şirkəti üç dəfə ardıcıl olaraq Bakcell şəbəkəsini Azərbaycanın ən sürətli mobil şəbəkəsi adlandırıb.*

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 274



## "Everest"də 50 ton zibil var

### İndi o tullantıları dəyərli sənət əsərinə çevirirlər



**Elə bir dağ fikirləşin ki, ölü insanlar sizə bələdçilik edir.**

Əlbəttə, bu dağa çıxmağın öz riskləri var və bəzi alpinistlər bu zirvəni fəth edə bilmədən həlak olurlar. Cansız bədənləri isə havanın kəskin olmasına görə çox az deformasiyaya uğrayır. Onlar digər alpinistlərin bələdçisi olur. Tibet dilində "Kainat tanrıçası" mənasını verən dünyanın ən hündür və ən çirkli dağı sayılan "Everest" öz ətəklərində alpinistlərin cansız bədənini, zirvəsində isə 50 ton zibil daşıyır.

*(Davamı səh: 15-də)*

## Əqli xəstələr artacaq

### Türkiyəli həkim xəbərdarlıq edib



**Koronavirusdan ən çox əziyyət çəkənlərdən biri də 65 yaşdan yuxarı altsheymer xəstələridir.**

Medicina xəbər verir ki, türkiyəli həkim nevroloq Özge Yılmaz Küsbeci koronavirusdan sonrakı dövrdə bu xəstələrin sayının daha da artacağını qeyd edib:

"Virus xəstələrin hərəkətsiz qalmasına, sosial imkanlarının azalmasına səbəb oldu. Koronavirusa yoluxma sayı azalsa da bu bir çox xəstəliklərin artmasına səbəb olacaq. Həmin xəstəlikdən biri də altsheymer xəstəliyidir. Altsheymer xüsusən 65 yaşdan yuxarı insanlarda rast gəlinən nevroloji bir xəstəlikdir. Amma 65 yaşdan əvvəl də buna rast gəlmək olar. 65 yaşda 100 nəfərdən 3-4-də olsa da, 75 yaşında bu rəqəm 10-20 arasında dəyişir. 86-90 yaşlarda isə hər 100 xəstənin 30-40-da bu xəstəliyi görə bilərik".

## 49 yaşlı nənə çıxdı

### Qadın ərini yoldan çıxaranı görüb şok oldu



**49 yaşlı nənənin özündən yaşca cavan kişiyə qoşulub qaçması barədə məlumat verməşdi.**

Türkiyənin Atv kanalında ailə-məişət məsələləri ilə bağlı Müge Anlının aparcılığı ilə yayımlanan proqramda yenə maraqlı anlar yaşanıb.

Özündən 15 yaş kiçik kişiyə qoşularaq qaçan 49 yaşlı Sevgi Kıranlı efirə çıxıb. Onun qaçdığı kişinin xanımı Sevgi Kıranlını efirdə görəndə özündən çıxıb, onu döymək istəyib.

*Qeyd edək ki, Sevgi Kıranlının 5 övladı və 4 nəvəsi var.*



# Hamilə arvadını uçurumdan atdı

### Qatil ərə ömürlük həbs cəzası istənilib



**Kişi 7 aylıq hamilə yoldaşını uçurumdan atıb.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, dəhşətli cinayət hadisəsi Türkiyədə yaşanıb. 7 aylıq hamilə Semra Aysal yoldaşı tərəfindən qətlə yetirilib. Cinayət hadisəsi bir neçə il bundan öncə baş versə də, qatil ötən ilin noyabrın 21-də müəyyənləşib. Qatil ər, Hakan Aysal həyat yoldaşını öldürdüyünü və Fəthiyədəki Kəpənəklər Vadisindəki qayalardan atdığını etiraf edib. Hakan Aysala qarşı "qəsdən öldürmə", "dəhşətli və əzabla öldürmək", "hamilə olduğu bilinən bir qadını öldürmək" maddələri ilə cinayət işi açılıb. Onun məhkəmədə ömürlük həbs cəzasına məhkum edilməsi irəli sürülüb.

**Aynurə**

## Körpənin dili görənləri təəccübləndirdi

### Oven Tomasın vəziyyəti günü-gündən pisləşir





**ABŞ-ın Pensilvaniya ştatında dünayaya gələn 3 yaşlı Oven Tomas hər 15 mindən bir körpədə rast gələnən sindroma yaxalanıb.**

Unikal.org bildirir ki, Oven dünyaya gəldiyinin ilk həftəsində dilinin normadan artıq böyük olmasına görə, nəfəs almaqda çətinlik yaşayıb. Həkimlər körpənin dilini əməliyyat edərək, onun xəstəliyini araşdırmağa başlayıblar.

Lakin yenidən dilinin böyüməsi onun səhhətində ciddi problemlər yaradıb. Həkimlər, körpənin bəzi orqanların da normadan çox böyüməsinə səbəb olan "Beckwith-wiedemann" sindromuna yaxalandığını aşkar ediblər.

3 yaşlı Ovenin digər orqanlarının böyüməsi onun yaşam tərzinə və səhhətinə mənfi təsir edir. Belə ki, nadir xəstəlikdən əziyyət çəkənin Oven Tomasın vəziyyəti günü-gündən pisləşir.

## Sevgilisi Burak Dənizi evdən qovdu



**Türkiyəli aktyor Burak Dəniz ilə model sevgilisi Didem Soydan arasında qalmaqal yaşanıb.**

Axşam.az xəbər verir ki, aktyorun "Maraşlı" serialında tərəf müqabili Alina Boz ilə yaxın münasibəti D.Soydanı qəzəbləndirib.

B.Dəniz ilə A.Bozun "Şamdan Plus" jurnalının Sevgililər Gününə özəl buraxılışı üçün kamera qarşısına keçmələri və kadrarxası görüntülərdəki səmimiyyətləri D.Soydanı özündən çıxarıb. O, Nişantaşındakı evinə gələn aktyoru qapıdan qovub. Burak Dəniz evə zorla girib və özünü müdafiə etməyə çalışıb. Səsdən narahat olan qonşular polis çağırıb. Cütlüyü dostları Umut Eker sakitləşdirmək çalışıb. Model U.Ekerə "Burak girdiyi roldan çıxa bilmir, çəkilişdən sonra da Alinaya yaxın davranır" deyə, qışqırıb. Hazırda cütlüyün münasibətində soyuqluğun olduğu deyilir.